www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Çağdaş Azərbaycan bədii nəsri”: 17 (132 - 2013)

Rövşən Yerfi

Sel

Povest

Bu dünyada elə bir yük var ki, nə gizlətmək mümkündür, nə də daşımaq... Bir sel gəldi,bütün natəmizliklərin üstünü açdı, özü-özünü aldatmaq istəyənlərin ümidlərini puç edən bir sel!..

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 17 (133 - 2013)

2013

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

"Çağdaş Azərbaycan bədii nəsri": 17 (132 - 2013)

Bu elektron nəşr http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Çağdaş Azərbaycan bədii nəsri" Kulturoloji-bədii layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 17 (132 - 2013)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

YYSQ və Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.net

Rövşən Yerfi

Sel

Povest

Bu dünyada elə bir yük var ki, nə gizlətmək mümkündür, nə də daşımaq... Bir sel gəldi,bütün natəmizliklərin üstünü açdı, özü-özünü aldatmaq istəyənlərin ümidlərini puç edən bir sel!..

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 17 (132 - 2013)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

Sel

Rövşən Yerfi

SEL

POVEST

Bakı - 2010

Rövşən Yerfi. SEL (povest)
Bakı, Kitab Klubu, 2010, 70 s.

Bu dünyada elə bir yük var ki, nə gizlətmək mümkündür, nə də daşımaq...
Bir sel gəldi,bütün natəmizliklərin üstünü açdı, özü-özünü aldatmaq istəyənlərin ümidlərini puç edən bir sel !..

© Rövşən Yerfi

© Kitab Klubu

SEL

Axşamdan bəri artan ağrıları Məhluqəyə göz qırpmağa aman vermirdi. Aram-aram gəlib gedən, nəfəsini kəsən sancıların təsirindən özündən asılı olmayaraq, var gücü ilə qışqırmaq, bağırmaq istəyirdi. Abrına qısılıb bağırmasa da, canını üzən sancılardan ara vermədən zarıyırdı. Onun belə vəziyyətində qeyri-adi heç nə yox idi. Çox keçməyəcəkdi, ondan yeni həyat, can törənəcəkdi, dünyaya insan gələcəkdi.

Bu, Məhluqənin ilk hamiləliyi də deyildi. Dörd uşaq anası idi. Amma, onların heç birində indiki qədər əzab çəkməmişdi. Keçən onillik fasilədən idimi, yoxsa "çağrılmayan qonağın" qarşısını almağa görə etdiyi müxtəlif cəhdlərin nəticəsiydimi, əvvəlkilərindən əziyyətli doğuş keçirirdi. Sanki, bətnindəki də arzuolunmazlığını duyubmuş kimi ləngiyir, dünyaya gəlməyə tələsmirdi.

Darıxırdı. Çarpayıda uzanıb qalmaqdan yorulmuşdu. Sancıları imkan vermirdi кi, ayağa durub gəzsin. Gəzmək də istəmirdi. Bura gələndən kimsənin onu görüb tanıya biləcəyindən ehtiyatlanıb bir addım da palatadan кənara qoymamışdı. Nə yaxşı кi, palatada təк idi. Hər dəfə tibb bacısı palataya gəlib gedəndə sirri açılacaq oğru кimi qorxuya düşürdü. Yanındakı boş çarpayıya təzə xəstə gətiriləcəyindən, həmin qadının onu tanıyacağından, neçə aylardan bəri gizlətdiyi sirrini hamının biləcəyindən çəkinib Allahdan bu gecə əzablarının qurtarmasını diləyirdi.

Gecə düşdükcə ətraf otaqların işıqları bir-bir sönür, anaların və кörpələrin hənirtiləri azalırdı.

Tibb bacıları təzəcə öz otaqlarına yığışıb dincəlmək istəyirdilər кi, qonşu otaqdan yayılan qəfil çığırtı yaranmış sakitliyi pozdu. Haraya gələn tibb bacıları doğmağa hazırlaşan qadını həkimin göstərişi ilə tələsə-tələsə doğuş otağına apardılar.

Az кeçmədən onun da başına belə yığılacaqdılar. Təzə gəlinin başına yığışan təki. Ağrısı ara verib sakitləşdikcə xəyalından ötən günlər кeçdi.

...Onu orta məktəbi bitirən ili Fəxrəddinə ərə vermişdilər. Fəxrəddin institutu qurtarıb məktəbdə müəllim işləməyə başlamışdı. Dərslər başlanandan gözü Məhluqəni tutmuşdu. Qızın incə belinədək uzanan şəvə кimi qara saçları hər dəfə rastlaşanda ağlını başından çıxarırdı. Məhluqə də onun gözlərindəki sevgiyə laqeyd qalmağı bacarmırdı. Müəllim şagird münasibətlərini nə qədər gözləsələr də hisslərini gizlədə bilmədilər. Günlərin bir günü məktəbin dəhlizindəki iri bədənnüma güzgünün qarşısında saçlarına sığal verən qıza biganə olmayan müəllim, darağı alıb şagirdinin uzun tellərini darayanda heyrətlə baxanlara aralarındakı istəyi açıq-aşkar etiraf etməli oldular.

Кəndin bütün qızları içərisindən Fəxrəddinin onu seçməsi Məhlüqə üçün o qədər gözlənilməz idi кi, sevincinin həddi yox idi. Heç vaxt xəyalını belə etmədiy bu boylu-buxunlu, yaraşıqlı, ali təhsilli oğlanın onu

xoşbəxt edəcəyinə öz varlığına inandığı qədər inanırdı. Qızlar Məhluqəyə həsəd aparırdı. O qızlardan birisi isə öz aləmində gənc müəllimlə xoş xəyallar qurur, кeçirdiyi hissləri rəfiqələri ilə bölüşüb zövq alırdı. Bir dəfə qızları başına yığıb növbəti xülyasını, yuxuda Fəxrəddinlə dənizdə çimdiyini, onu heç kəsə verməyəcəyini, yaxınlarda nişanlanacağını söyləyib qürrələnirdi.

Fəxrəddin dərs ilinin sonunda nişanlandı. Özü də Məhluqə ilə. Növbəti payızda isə toyları oldu. Həyatın ən unudulmaz, şirin anları yaşandı.

Bir il sonra ilк övladının oğlan olması hamını sevindirmişdi. Balaca Şakir bütün ailənin istəklisiydi. Məhluqə az vaxtda xoşbəxtliyinə qovuşduğunu zənn edirdi.

İkinci uşaq qız oldu. Yenə sevindilər. "Qız da, oğlan da Allah payıdır", - dedilər.

Fəxrəddin özünü tox tutaraq qərar verdi: - Bir oğlumuz da olsa bəsimizdi. Çoxun çox da dərdi var.

Daha iki il keçdi. İkinci qız uşağı dünyaya göz açdı. Bu dəfə heç kimin üzü gülmədi. Səbr edərək ardıcıl iki qızdan sonra oğlan olacağını güman etdilər. Dördüncü hamiləliyi də qızla nəticələnəndə evdə əsl qanıqaraçılıq baş verdi. Fəxrəddinin səbr kasası daşdı, hövsələsini basa bilməyib özündən çıxdı, ona bozarıb körpədən imtina etmək istədi. Neyləyəydi yazıq Məhluqə. Əlində deyildi ki, öz istədiyini etsin. Allahın payından necə imtina etmək olardı?! Ömrünün xoşbəxt günləri elə o vaxtdan tükəndi. Böyük günah sahibi imiş. Ərinin əvvəllər olan mehriban nəvazişi yox oldu, aralarında soyuqluq yarandı. Hətta dəfələrlə qadınlığı ilə onun кönlünü almağaa çalışsa da, Fəxrəddin acıqlı baxışlarla süzüb onu acılamışdı: - Daha bəsdir, onsuz da əlindən qız doğmaqdan savayı bir iş gəlmir, gərəк deyil…

Ər-arvad münasibətləri getdikcə gərginləşirdi. Münasibət yoxsa, hörmət də yox idi.

Bəd yaşayışın axırı yaxşı olmaz deyiblər. Bir müddət sonra ard-ardınca Fəxrəddinin ahıl ata-anası da rəhmətə getdi. Onların rəhmətə getməsi ilə elə bil evin ruzi-bərəкəti də çəkildi. İldən ilə uşaqlar böyüyür, tələbat artırdı. Ailənin tələbatı artdıqca yaşamaq çətinləşirdi. Fəxrəddinin nə məktəbdən aldığı məvacib, nə də həyətyanı təsərrüfatın gəliri ehtiyacları ödəyirdi. Onunla bir sinifdə oxuyan, adını belə yaza bilməyən, əsgərlikdən sonra Rusiyada qalıb, bazarlarda alver etməyin hesabına bəy balası kimi yaşayan tay-tuşlarını görəndə, neçə illər əziyyət çəkib oxumasına, müəllim olmasına peşman olub, heyfslənirdi.

Altı il qabaq (Onda Məhluqənin otuz üç yaşı vardı) Fəxrəddin işini atıb Rusiyaya alverə gedənlərdən birinə qoşulub, evin bütün ağırlığını Məhluqənin üzərinə qoydu. Dolanışığının çətinləşdiyini, belə yaşamağın mümkün olmadığını əlində bayraq edən Fəxrəddin, uzağı altı aya qayıdacağına hamını inandırmağa çalışırdı. O günlərdə dünyasını dəyişmiş qoca xadimənin əvəzinə Məhluqəni işə düzəldib, sanki bununla məktəbdən heç də tamam əl üzmədiyini göstərmək istəyirdi. Danışanda elə təsəvvür yaradırdı ki, guya Məhluqə xadimə işləməklə ailənin gündəlik çörək pulunu təmin edəcək. Qalacaq əlavə xərclər, onu da özü Rusiyadan göndərəcək, vəssalam, problem yoxdur. Gedəni saxlamaq olmazdı. Fəxrəddin кönlünün quşunu çoxdan uçurtmuşdu uzaq ellərə.

Şakirin on üç yaşı təzəcə tamam olmuşdu. Həyətdəki toyuq-cücənin, bir inəyin saxlanılmasında az-çox yenə onun köməyi olurdu Məhluqəyə. Qızlar hələ balaca idi.

Fəxrəddin üç aydan bir ya poçtla, ya da ordan gələn yerlilərdən biri ilə pul göndərirdi. Lakin dolanışıqlarının artan yeri yox idi. Yenə əvvəlki kimi bu aydan o biri aya borc alıb-qaytararaq yaşayırdılar. Göndərdiy pulu aylara böləndə, aylıq gəlir elə müəllim maaşı qədər olurdu. Fərq yalnız onun öz evində olmamasındaydı.

Adının mağazadakı nisyə dəftərindən silinməməsinə görə çölü bir yana, içi özünü yandırırdı. "Bundan artıq qazana bilməyəcəkdinsə, evindən ayrı düşməyinin nə mənası," – Məhluqə ərinə gülməsinlər deyə, üzdə açıb-ağartmasa da, ürəyində Fəxrəddini qınayırdı.

Həyat onu sıxdıqca kənardan laqeyd baxdığı yaşamaq uğrunda gedən mübarizəyə qoşulmalı olurdu. Dolanışıq xatirinə həyətindəki təsərrüfatından, uşaqlarının boğazından qısdığı qatıqdan, şordan, yumurtadan bazara aparıb, satmaq məcburiyyətində qalırdı. Məktəbdən aldığı xadimə maaşı heç quruca çörək puluna da bəs eləmirdi. "Yeməklə doymayan, yalamaqla doymaz. Özü müəllimliklə doymadı, məni ayaq altı süpürtməklə guya çörəkli etdi!.." – hər dəfə sinifləri silib-süpürəndə ərinin qarasına deyinirdi.

İl yarımdan sonra Fəxrəddin qayıtdı. Onun darvazadan həyətə girdiyini görən Məhluqə sevincindən ağladı. Uşaqlar hərə bir tərəfdən ona bərk-bərk sarılıb qucaqladılar. Uzun müddət həsrət qaldıqları ata nəvazişinin, hərarətinin doyumluğunu almaq üçün bir neçə gün yanından əl çəkmədilər, hara getsə arxasınca düşdülər.

Üç günün tamamında Fəxrəddindən bir həftəliyə gəldiyini, təzədən Rusiyaya qayıdacağını eşidəndə hamının qanı qaraldı.

- Nə danışırsan, - Məhluqə həyəcanlandı, - hara gedirsən?

- Haradan gəlmişəm, ora, - Fəxrəddin gülüb, arxayınlıqla cavab verdi.

- Altı ay adıyla getdin, il yarıma gəldin. Bir də getsən nə vaxt qayıdacaqsan? Uşaqlar da böyüyüb, onlara tək pul yox, ata qayğısı, ata nəzarəti də lazımdır. Kefi istəyəndə qonaq gəlib-gedən yox!

Cavabı gözləməyə səbri çatmayan Məhluqə ona danışmağa imkan vermədi:

- Niyə gedirsən, nə üçün gedirsən? Göndərdiyin pulu elə burada da əl-ayağın tər-təmiz, gül kimi sənətinlə qazanırsan. Fərqi, xeyri nədir, başa sal, mən də bilim.

- Coşma, dayan görüm, - «qonaq» narazılıqla səsini ucaltdı, - fərqini deyim, burada olanda mən də o məbləğdən dolanırdım. İndi ona şərik olmadan özümü tam dolandırıram. Bilirsən, əyin-başıma nə qədər pal-paltar almışam? Əvvəllər onların birini il ərzində güclə alırdım. Hələ sizə də nə qədər alıb gətirmişəm.

- Sən ancaq özünü düşünürsən, - Məhluqə doluxsundu, - həmişə belə olmusan. Mənə lazım deyil sənin cır-cındırın. Təkcə paltara, əyin-başa görə bizi atıb gedirsənsə, getmə. İldə bir dəst əyin-baş mən sənə alaram, lazım gəlsə, yemərəm, içmərəm bunu edərəm. Bununla bəhanən qurtarır?

- Elə deyil. Mən səni başa düşürəm. Səni qazancımın az olmağı razı salmır. Təzə-təzə bundan artıq qazanmaq olmur. Yaxşı gəlir əldə etmək üçün vaxt lazımdır, başa düş. Görüb-götürürsən, öyrənirsən, dost-tanışla-

rın artır, nəticədə qazancın da çoxalır. Elə bu məqsədlə mən yenə qayıtmalıyam. İndi-indi özümə yer tuturam. Gələn dəfədən isə göndərəcəyim pulun miqdarını mütləq artıracağam. Təkcə mənəmmi gedən, məhəllədə gör neçə adam "sezona" gedir?

- Sən necə insansan, o gedənlərin burda köməkləri də var, məni kimin ümidinə qoyursan, - Məhluqəni hıçqırıq boğdu, - mən sənlə pul davası etmirəm. Deyirəm ki, bizi atıb, evi başsız qoyub getmə. Bəyəm torpağında qalanların hamısı acından ölür? Bu millət necə dolanır, biz də elə yaşayaq.

- Sürünməyə yaşamaqmı deyirsən? Biz cəhənnəm, bəs uşaqlar? Onların gələcəyi necə olacaq? Gələcəyəm, bir az imkanım artsın, hələ harasıdır?! Gəlib evin üçüncü mərtəbəsini də tikdirəcəyəm. Həmişəlik getmirəm ki?! Əvvəl-axır evimə qayıdacağam. Ancaq indi mütləq getməliyəm. Söz vermişəm.

- Kimə?

Fəxrəddin gözləmədiyi sualdan özünü itirdi, amma "sudan quru çıxdı":

- Kimə olacaq, bir yerdə alver etdiyim yoldaşlarıma. Söz verib əməl etməmək kişilikdən deyil, axı.

Məhluqə söhbətin dərininə getməyib susdu. Gözlərinin yaşını silib, ərini hədələdi:

- Yaxşı, gedirsən get, daha yalvarmayacağam. Yadında qalsın, bir söz deyim sənə. Gör-gözlə, sən imkanlı, pullu olanda məni itirəcəksən. Tapmayacaqsan bu evdə, başımı götürüb gedəcəyəm.

- Hara?!

- Cəhənnəmə...

Daha üç gün də keçdi. Fəxrəddin o gedən oldu. İki ilə yaxın pul göndərdi. Sonra nə pulu gəldi, nə də sorağı. Elə bil qeybə çəkilmişdi. Dəqiq ünvanını da bilən yox idi. Həmin şəhərə gedib-gələnlərdən Fəxrəddinin bazarda alver etdiyini, bir dul arvadın evində qaldığını, arvaddan uşağı olduğunu eşitmişdi. Onları isə üç ildən artıq idi ki, unutmuşdu. Sanki bu ev, ailə, uşaqlar onun deyildi. «Belə kişilik olar, - Məhluqə düşünürdü, - qalmasın belə qazanc. Ömrünün cavan çağını kənarda keçirib, nə vaxtsa başına kül olub bir tərəfi əyiləndə üstümüzə gələcək ki, mən də varam. Cəmdəyinə dəysin elə gəlməyi…»

İllər keçdikcə Məhluqə ailəni təkbaşına saxlamağa alışır və çəkdiyi əzab-əziyyətə normal, adi hal kimi baxırdı. Əri olmasa yaşamayacaqdı? Elə hesab edirdi ki, o da azyaşlı uşaqları olan dul qadınlardan biridir. Həm də kənddə ev-eşiyi arvadın öhdəsinə qoyub, özü kənarda yaşayan, ailəsi ilə maraqlanmayan təkcə Fəxrəddin deyildi ki. Məhluqənin dərdinə şərik onlarla ailə – ərsiz arvad, oğulsuz qalmış ana ümidlə yaşayırdı.

Qonşu məhəllədə Gülzarın vəziyyəti daha acınacaqlı idi. Əri Azad, Fəxrəddini yoldan çıxaranlardan biri, üç azyaşlı uşaqdan əlavə qoca, xəstə anasını da arvadının öhdəsinə qoyub evdən getmişdi. Qızları arada bir gelib analarını yoluxsalar da, əsas agırlıq Gülzarın boynuna düşürdü. Hər dəfə oğluna evinə qayıtmagı yalvaran, gözü yaşlı ana öləndə kürəkən ümidinə qalacagını özünə dərd edirdi.

Məhluqə onlara baxanda qaynanasının bu günləri görməyib dünyadan köçdüyünə az qala şükür edirdi. İndi, tək də olsa, öz dərdi özünə bəs edirdi.

Fəxrəddinin qardaşı yox idi. Bir bacısı vardı, o da qonşu rayonda ərdə idi. Yolu uzaq oldugundan ancaq yasda, toyda gorüşərdilər.

Təklik, кimsəsizlik ele bil onların alnına yazılmışdı. Məhluqə hələ uşaq ikən anası erkən dünyanı tərk etdiyindən anasız böyümüşdü. Atasının aldıgı ögey anadan iki bacısı, bir qardaşı vardı. Nə qeder mehribanlıq etsə də, ögeylik unu-dulmurdu. Atası rəhmətə gedəndən yadlaşmışdılar.

O, heç кimdən heç nə ummurdu. Allah hər кəsin canını sag elesin, öz evində-eşiyində. Hərənin öz ailəsi, öz dərd-səri, taleyi. Kim kimədir? Qurban oldugum heç vaxt sag əli, sol ələ möhtac etməsin, - həmişə dua edərdi.

Nə yaxşı ki, evdə kişi əvəzi oglu Şakir böyüyürdü. Kişilər arasına çıxmalı iş olanda, onu irəli verib, ar-xasında durardı. Üç bacının qardaşı, özünü evin kişisi hiss edən Şakir böyüdükcə üstünə düsən vəzifənin məsuliyyətini dərk edirdi. Bacardıgı qədər çalışıb, agıllı hərəkətləri ilə ona göstərilən inama layiq olduguna ana-sını inandırmaq istəyirdi. Aglı кəsəndən hiss etdiyi çətin həyat şəraiti oglunu qənaətcil, qazanılan hər manatın qədrini bilən, özündən çox anasının və bacılarının qaygıkeşi etmişdi.

Şakir məktəbi qurtarıb, təzəcə ona kömək, dayaq olurdu ki, ürəyinə arxayınlıq yayılar-yayılmaz, uşagı əsgər apardılar. Yenə tək qaldı.

Görünür taleyi beləymiş. Ürək dolusu xoş gün görə bilməzdi. Daima buludlu havanı xatırladan ömründə, günəş görünən an istisindən, işıgından doymamış, gözlənilməyən, qəfil bir bulud qarşısını кəsirdi.

Bir müddət Gülzara qoşulub şəhərdəki magazalardan кənd camaatına satmaq mümkün olan paltarlar, az tapılan mallar alıb кəndbəкənd gəzib alverlə məşgul olmaga başladı. Qızlar кiçik oldugundan yaxın кəndlərə gedir, gecə düşənədək evə çatmaga çalışırdı.

İlk baxışda asan görünən bu iş çox agır və abır tökən idi. Əvvəl malla dolu çantaları əlinə, belinə yük edib çıxırsan кənd yoluna. Olsa avtobus, olmasa gah o masınla, gah bu maşınla yetişirsən кəndə. Burda da hər göz sənə bir niyyətlə baxır, hərənin agzından bir avaz gəlirdi. Mal xoşlarına gəlsə də pul verməzdilər. Onlar şəhərlilər kimi hər şeyə pul xərcləməyə vərdiş etməmişdilər. Aldıqlarını şor pendir, кartof, alma ilə dəyişərdilər. Qayıdanda da meyvə, кartof кisələrini, şor, pendir torbalarını şəllə dalına, o maşından, bu maşina daşı bazara. Dəyər-dəyməzinə ver bazar alverçilərinə, al pulunu. Qazandıgın pul əziyyətinə dəymirdi. Üzün üzlər görürdü, qulagın sözlər eşidirdi. Həyanı tökən, qəlbinə dəyən başına gələnləri qulaqardına vurmaqdan başqa çarə qalmırdı. Müxtəlif adamlarla üzləşərək sürtülə-sürtülə sırtılırdın. Utandıgın, özünə yaraşdırmayıb, eyib hesab etdiyin hər bir hərəkət birinci dəfə çətin olsa da, sonra adiləşir, getdikcə arsızlaşırdın. Dogru sözdür, utanmasan oynamaq nədir, mayallaq aşmaq da asandır. Heç abır-həyaya da ehtiyac qalmırdı.

İlk günlər onu aldatmaga çalışırdılar. Aldadıla-aldadıla özü də başqalarını aldatmagı öyrəndi. Cavanlıgına, yaraşıgına aludə olub xüsusi təkliflərlə кişilərin ona «ilişmək» istəməsi, ürəyini agrıtsa da alverin xatirinə xoşluqla, bəhanə uydurub özündən кənarlaşdırırdı.

Ən çox sürücülər şorgözlük edirdilər. Uzaq kəndlərin birinə səfər edərkən o, Gülzarın vasitəsilə kənd ilə rayon arası işləyən Qəşəmlə tanış olmuşdu. İlk gündən Qəşəmin mehribanlıgından, gediş haqqı götürməməyindən gözün su içməmişdi. Hər zaman nə işi, qullugu olarsa kömək etməyə cani dildən hazır olan Qəşəm Məhluqənin başına pərvanə kimi fırlanırdı. O, pul istəmirdi, əvəzində umacagı "yaxınlıq" etmək idi. Bunu dili ilə deməsə də, gözleri ilə anlatmışdı. Məhluqə işinin xatirinə susub Qəşəmin dilinin açılacagı günü gözləyirdi. Çox gözləmək lazım gəlmədi. Günlərin birində кənddən qayıdarkən yanlarında heç kəsin olmamasından istifadə etmək istəyən Qəşəm maşını yoldan çıxarıb yaxınlıqdakı geniş кolluga tərəf sürdü:

- Qəşəm, hara gedirik, - Məhluqə narahat oldu.

- Darıxma, burada bir gözəl bulaq var. Suyundan içək , dincimizi alaq, yenə yolumuza davam edərik. Bilirsən nə əla yerdi. Gülzarı da gətirmişəm bura, xoşuna gəlmişdi. İkilikdə bütün dərd-sərimizi unudarıq…

Üzə vurmasa da, Məhluqəni daxildən həyəcan bürümüşdü. Başa düsürdü ki , bulaq bəhanədir, nəhayət Qəşəm istədiyini indi dilinə gətirməli olacaqdı. O, Gülzarı bura gətirib, demək onların «tanışlıgı» heç də düşündüyü qədər adi deyilmiş. Haqqında danışılan dedi-qodularda həqiqət varmış…

Maşın bulağın yanında dayandı.

- Düş gedək su içək, - Qəşəm əlini ona tərəf uzadıb əlindən tutdu.

- Yox, mən istəmirəm, özün iç.

- Yaxşı, onda havamızı dəyişək, dincələk.

Məhluqə israr edib maşından düşmək istəməyəndə Qəşəm onu özünə tərəf çəkib, qolunu belinə dolayıb qucaqladı. Gozlərini çaşqınlıqla donmuş gözlərinə zillədi:

- Beş günlük dünyadır, beşi də ala-bula. Qara desəm göydəkinin acığı gələr. Niyə beşgünlük ömrümüzün qədrini bilməyək. Gəl müvəqqəti verilən nemətdən – cavanlığımızdan ürəyimizcə dadaq. Hə, nə deyirsən, razılaşırsan mənimlə?

Məhluqənin boğazı qurumuşdu. Bilmirdi nə etsin. Qapını açıb Qəşəmin qucağından çıxıb bu kimsəsiz çöldə hara qaçsın? Görən, bilən nə deyər? Uzaqbaşı adı dillər əzbəri olacaq. Yoxsa Qəşəmlə razılaşsın. O halda evə – qızlarının qarşısına hansı üzlə qayıdardı?

- Nə olub sənə? Nə fikirləşirsən? Lap özünü qızdan betər aparırsan.

Məhluqə qayğılı nəzərlərlə başını aşağı dikmişdi. Bəlkə ona toxunmaması üçün Qəşəmə yalvarsın? Ağlına gözləmədiyi fikir gəldi:

- Qəşəm, məni bağışla, deməyə də utanıram, qalsın başqa vaxta.

- Niyə, xeyir ola? Atalar deyib кi, bu günün işini sabaha qoyma. Əldən qalan iş, əlli il qalar. Dünyaya etibar yoxdu. Bu gün varsan, sabah yox. İnsana qalan budu…

Sanki, yalan danışmağından yox, həyasından sifəti rəng verib-rəng aldı. Başını qaldırmadan, utana-utana dedi:

- Xəstəyəm,… olmaz!

Qəşəm əvvəlcə bir şey anlamayıb matdım-matdım ona baxdı. Sonra söhbətin hansı xəstəlikdən getdiyini duyub gülümsədi:

- Hə, bildim, ay məsələsi… Ayda, ildə bir namaz, onu da xəstəlik qoymaz. Yaxşı, qalsın başqa vaxta, getdik! Başqa vaxt gələrik.

Qəşəm maşını döndərib gəldiy səmtə qayıtdı.

O gündən Məhluqə kəndləırə alverə getməyə son qoydu. Əks halda onu heç də arzulamadığı hadisələrin labüdlüyü qorxudurdu.

Gülzar da axır vaxtlar alverdən yorulub evdə araq çəkib satmaqla məşğul olurdu. Məhlüqə bir neçə dəfə xahiş etmişdi ki, hazırlanma qaydasını ona da öyrətsin. Qazancına şərikin artmasından ehtiyatlanan Gülzar müxtəlif bəhanələrlə söhbətdən yayınmışdı.

Elə yaxşı ki, öyrənib məşğul olmamışdı. Bir axşam xəbər gəldi ki, polis qanunsuz araq çəkib satdığına görə Gülzarı gecəynən evindən aparıb. Bir gecə şöbədə qalandan sonra, qaynanası səhəri gün rəisin ayaqlarına döşənib, yalvarıb-yaxarıb, bir daha gəlininin bu işlə məşğul olmayacağına and verib həbsdən qurtarmışdı…

***

Ağrılar ara verməsə də, gecə yarısını keçəndən sonra yuxu kirpiklərindən sallanıb gözlərini qapayırdı. Özündən asılı olmayaraq gah mürgüləyir, gah da ayılıb gözlərini tavana zilləyirdi. Gecə lampasının işığı ilə küçədən düşən işığın kəsişməsində qəribə kölgələr yaranmışdı. Bu kölgələr mürgülü gözləri önündə mənzərələr yaradır, bəzən canlanıb insana oxşayırdılar. Bax, o uzunboy Fəxrəddinə bənzəyirdi. Elə bil divardan boylanıb ona baxırdı. Məhsun baxışları vardı. Pərt idi. Dinmirdi. Dinsəydi, mütləq onu xəyanətdə qınayacaqdı. Getdikcə gözlərində yalvarış duyulurdu. Ona nə olmuşdu, nə demək istəyirdi? Amma deyə bilmirdi. Onları dərin uçurum ayırırdı.

- Fəxrəddin, eşidirsən, məni eşidirsən, ehey...

Səslədikcə Fəxrəddin uzaqlaşır, kiçilir, uçurumda yox olurdu.

Məhluqə mürgüdən ayılıb təşvişlə divara baxdı. Küçədəki işıq söndüyündən kölgə yox olmuşdu. Neçə vaxtdır onu yaddan çıxarmış ərinin yuxusuna gəlməsi Məhluqəni təccübləndirdi. Yəqin başına nəsə iş gəlib, qeylü-qaldadır, ona görə yuxuma gəlib. Kefli vaxtlarında yadına düşmürəm, - fikirləşdi. Bura gəlməzdən iki-üç həftə əvvəl məktəbdə Fəxrəddinin sinif yoldaşı olmuş Tariyel müəllimlə rastlaşanda, uşaqların hal-əhvalını soruşub demişdi:

- Fəxrəddinə bir məktub yazmışam, gəl görəsən. Əgər məktub çatsa, oxuyub evinə gəlib dəyməsə onu adam siyahısından siləcəyəm.

Tariyel müəllim düz deyirdi. Həmin günlərdə o, кeçmiş həmkarına həqiqətən məktub yazmışdı. Məktubu alan gün Fəxrəddin üçün qeyri-adi hadisə baş vermişdi: ilk dəfə idi ona vətəndən məktub gəlmişdi...

"Cənab müəllim, salam. Necəsən? Yəqin ki, bizi unutduğun kimi müəllimliyini də unutmusan. Şübhəsiz bizi unutmaqla özünü də unudub bazar alverçisi Fedyaya dönmüsən. İşlərin necə gedir? Üç ildir üzünü görmürük. Bir az yaşlaşmış olarsan. Adətən insan yaşa dolduqca öz elinə, torpağına bağlandığını görmüşdük. İndi əksinə olub. Sənin kimilər ehtiyac bəhanəsi ilə vətənindən birdəfəlik üz döndərib gedirlər. Dost-tanışsız, qohum-əqrabasız hardasa illərlə yaşamaq mümkündür. Bəs ailən? Ailə-uşaq haqqında heç düşünürmüsənmi? Onlar səni hələ nə qədər gözləyəcəklər? Məhluqənin necə əzab çəkdiyini bilirsənmi? Xadiməlik edir, gah bazara, gah qonşu kəndlərə alverə gedir, güc-bəla ilə uşaqları böyüdür. Bildiyimə görə axır illərdə daha pul da göndərmirsən. Yadındamı o vaxtlar? Sənin ərləri evlərində olmayan arvadlar haqqında danışdıqların, şübhələrin. Belə qadınların düz yaşamağına heç cürə inanmırdın. Təsəvvür elə ki, indi də kimsə eyni sözləri sənin arvadın barəsində danışır. Utanırsanmı? Belə də olmalıdır. İti yiyəsinə görə tanıyırlar, sahibsizə daş atan da çox olur. Görünür sən bazarda pul qazanmaqla utanmaq, xəcalət çəkmək hissini də itirmisən.

Məgər öz torpağında, arvad-uşağının yanında Allahın yetirdiyinə qane olub yaşayanlar adam döyül?

Eşitdiyimə görə, evində qaldığın dul qadının hesabına orada da evli-eşikli olmusan. Sən qazanca görə ömür boyu qazandığın mənəviyyatını, ailəni, vətənini dəyişmisən. Diqqətlə düşünsən, itirdiklərin qazandıqlarından çoxdur. Yadında qalsın ki, özünə qiymət qoymayanı özgə də sevmir. Vaxtaşırı oradan yola salınan tabutlar sənə heç nə anlatmırmı? İncimə, bütün bunları səni doğma qardaşım qədər istədiyim üçün, qəflət yuxusundan ayıltmaq, xəbərdar etmək, ailənə, obana qayıtmağını istədiyim üçün yazıram. Ağlına başqa fikir gəlməsin. Fikirləş!

Hörmətlə: dostun Tariyel"

Tariyelin məktubu Fəxrəddinə qulağının dibini alışdırıb başını hərlədən bərk sillənin təsirini bağışladı. Oturduğu yerdən durmağa halı olmadı. Beyni istilənsə də, bədənini soyuq tər bürümüşdü. Ona çoxdan heç kim cürət edib belə sözlər deməmişdi. Uşaqlıq dostu, sonra da məktəbdə iş yoldaşı olan Tariyelə kim ixtiyar vermişdi bu sayaq məktub yazsın. Ürəyində ona qəzəbləndi, yanında olsaydı dözməyib cavabını verərdi: “Mənə ürəyi yanana, Məhluqənin dərdini çəkənə bax! Nə böyük iş olub, Fəxrəddin üç il kəndə getməyib, dünya dağılıb. Gedəcəyəm də... Gərək yollarda qalam? Vaxtım çatanda gedəcəyəm də. Br də ki, nə vətən, hansı vətən? Mənim günüm harda xoş keçir, ora vətənimdir. Qaldı Məhluqə, o, elə qadın deyil, özünün könlü olmaya-olmaya kimsə ona yanaşsın?”

Daxildən gələn səs onu məzəmmətlədi: “Bəlkə bu üç ildə dözməyib könlünə düşəni tapıb? Bəlkə Tariyel nəsə bilir? Od olmayan yerdən tüstü çıxmaz. Tariyeli nə məcbur edib ki, soraqlaşıb-axtararaq ünvanını tapıb, ona belə “nəsihatəmiz” məktub yazıb?”

"Bəlkələr" onu hövsələdən çıxardı. Əlini əsəbi halda yellədi: "Onsuz da qadına vəfa, etibar yoxdur..."

Fəxrəddin şübhələri beynindən qovmağa çalışsa da, xeyri olmadı. Onu fikir götürmüşdü, ötən günlər yadına düşmüşdü. O, Məhluqəni necə qızğınlıqla sevmişdisə, o qayda ilə də soyumuşdu. Uşaqların sayı artıb, böyüdükcə, günü-gündən dolanışıq çətinləşir, yaşamaq ağırlaşırdı. Ömür isə keçirdi. Hər il gələn ilin yaxşı olacağını ümidlə gözləyirdi. İllər bir-birini əvəz edir, çətinliklər azalmaq əvəzinə artırdı. Ona isə yaşadığı illərdən, daim qayğılar içərisində çapalamaq qalırdı. Bir tərəfdən də Şakirdən sonra üç qızın olması hövsələsini tam daraltmışdı. Evin ehtiyaclarını ödəyə bilməməsi, bəzən dili qısa olması hətta özünə qarşı nifrət yaratmışdı. Çıxış yolu tapmalı idi. Belə yaşamaq olmazdı. Üç-dörd il də keçəcək, yaşı qırxı ötəcəkdi. Nə özü bir gün görəcək, nə də balalarına fərli-başlı ev-eşik qura biləcəkdi. Hələ bu gün-sabah qızları üçün elçilərin qapısını döyəcəyini düşündükcə ürəyi qısılırdı.

O, gələcəyini təminatlı etmək üçün qüvvəsini, ömrünü, oxumağa, təhsilə sərf edəndə, adını yaza bilməyən həmyaşıdları yad ölkələrin bazarlarına yol aldılar. Qazanc xatirinə qərib ellərdə hər cür əzaba dözən, lazım gələrsə millətini, şəxsiyyətini alçaldan hərəkətlərə hazır olan binəvalara ürəyində gülər, yazığı gələrdi.

İllər keçdi. Fəxrəddin institutu bitirib kəndə müəllim işləməyə gəldi. Evləndi. İlk illlər pis yaşamırdı. Çox keçmədi. Valideynləri dünyasını dəyişdi, uşaqlar çoxaldı. Ancaq ev-eşikdə heç nə artmadı. Məktəbdə, həyətində nə qədər işləsə də qazancı ehtiyacını ödəmirdi. Evin dam örtüyü köhnələndə, bir vaxtlar halına yandığı yoldaşları qonşuluqda imarətlər ucaltdı. O, imarət istəmirdi, sadəcə ailə içərisində, qohum-əqraba arasında onu xar etməyən yaşayış tərzi istəyirdi. Lakin, sevdiyi torpaq, el-oba belə yaşayışı təmin etmirdi. Zəmanənin gərdişi idimi, yoxsa onun qisməti beləydi. Yaşadığı yurdla elə bil, bir-birilərini başa düşmürdülər. Yaranmış anlaşılmazlıqdan günü-gündən doğma ocağına yadlaşırdı. Odur ki, cavanlığı keçsə də, orta məktəbdə dərsini hazırlamağa kömək etdiyi Azaddan Rusiyaya getmək üçün kömək istədi, ona yol göstərməyi xahiş etdi. Keçmiş əlaçı yoldaşına Azad yad diyarda arxa olacağını boynuna götürmüşdü.

Əvvəlcə "sezon" adı ilə evdən çıxmışdı. Ağır dolanışıqlarının düzələcəyinə ümid edən Məhluqə ərinin özgə diyara getməsinə etiraz etməmişdi. Təbii ki, ilk günlər çətin idi. Evi, uşaqları üçün burnunun ucu göynəyirdi. Tez-tez ziyarət etdiyi ata-anasının qəbirləri gözünün önünə gəlir, qəribsəyirdi. Bəzən oturduğu yerdə, özündən asılı olmadan, ürəyinə xalq havaları yayılırdı: bənd-bənd, misra-misra, Xalq musiqisinin dəyərini yad ellərdə başa düşmüşdü. Təsadüfən qulağına doğma musiqi sədası gələndə, az qalırdı kövrəlsin.

Zaman öz işini görürdü. Aylar ötdükcə yaşadıgı yad şəhərin qəribəlikləri adiləşir, oradakı həyat tərzinə öyrəşirdi.

Vətənə altı aya qayıtmaq mümkün olmadı. Bura Azadın pulu ilə gəlmişdi. Aldıgı borcu qaytarınca, üst--başını yaşadıgı şəhərin təbiətinə və geyim dəbinə uygunlaşdırınca altı ay keçdi. Sonra uşaqlarını dolandırmaq üçün Məhluqəyə pul göndərmək yada düşdü. Hər ay bacarmasa da, bir neçə aya topladığını göndərirdi. Evə qayıtmaq, yol və hədiyyə pulunu qazanmaq üçün hələ xeyli vaxt işləməliydi.

Bu şəhərdə hər şənbə və bazar axşamı bütün şəhər yeyib-içib, əylənir, rəqs meydançasına toplaşıb rəqs edirdı. Hamının qoşuldugu tədbirlərdən özünü təcrid etmək mümkün deyildi. Əvvəlcə yarıxoş-yarızorla qatıldıgı əyləncələrə, sonralar alışıb vərdiş elədi.

Fəxrəddin belə məclislərdə içkiyə aludə olmayıb, özünü müxtəlif mübahisələrdən, öz aralarında dedikləri kimi, qız üstə davalardan qorusa da, bəzən qırsaqqız olub əl çəkmək istəməyən qadınlardan kənarlaşdırmağa çətinlik çəkirdi.

Onlara qarşı layiq olduqları kobudlugu etməyə mədəniyyəti yol vermidiyi üçün tez bir zamanda tanışları artmışdı. Aydın məsələ idi ki, eyş-işrətlə gün keçirən bu qadınların çoxu pozgun həyat sürürdü. Məqsəd uzun müddət qadınla yaşamayan kişiləri ələ alıb, qazancına şərik olmaq idi. Elə bil gözəlçələrin arasında yarış gedirdi. Fəxrəddin nə edəcəyini bilmirdi. Nisbətən bu işdə təcrübəli olan Azad ona məsləhət verdi.

- Yaxşısı budur aralarından ürəyinə yatanı seç. Həm cavanlıq et, həm də qadının olduğunu görəndə, o birilər səndən əl çəkər.

- Yaxşı fikirdir, ağıllı sözə nə deyəsən, - Fəxrəddin razılaşdı, - onda sən məni bu axşam Sveta deyilən var ha, onunla tanış etsən əla olar...

- Ay səni, iştahan pis deyil. Bir qırmızı şampan alarsan, gözəlçən sənin hüzurunda hazır!

Axşam rəqs məclisində Azad şampan şərabına qonaq etdiyi Svetanı Fəxrəddinlə tanış etdi.

Sveta otuz-otuz beş yaşında, elə Məhluqə ilə yaşıd olardı. İşıqlı mavi gözləri, şabalıdı saçları, gülərüz, ənlik-kirşanlı sifəti, düz biçimli bədəni, uzun, yaraşıqlı qıçları rəqs boyu Fəxrəddinin ağlını alırdı. O, daha Məhluqəni xatırlamaq belə istəmirdi. Sveta ondan qat-qat yüksəklikdə parlayan bir ulduz təki gözlərini qamaşdırırdı. Fəxrəddin pula görə Vətəni unutduğu kimi, cavanlıq məhəbbətini də unutmuşdu. Özünü cənnətdə hiss edirdi. Bütün gecəni Sveta ilə rəqs edib, əyləndiyindən, digər "kişi ovçuları" ondan aralanmışdılar. Fəxrəddin də tərəfdaşının xoşuna gəlmişdi. Bu təmkinli, həm də yaraşıqlı kişi, digər "qaralardan", "bazar adamlarından" fərqlənirdi. Demə, könlündən keçsə də, onu həmişə rəfiqələri qabaqlayıb, Fedyanı qamarlayıbmışlar.

Şərabın və Fəxrəddinin təması Svetanı o qədər məmnun etmişdi ki, məclis başa çatsa da ayrılmaq istəmirdi. Xoş dəqiqələri uzatmaq, uzatmaq istəyirdi. Fəxrəddin onu evinə qədər ötürməyi təklif edəndə sevincək razılaşdı. Evin qarşısına çatıb sağollaşıb ayrılanda Sveta onu evə dəvət etdi:

- Gəl evə, gedərsən, darıxma. Narahat olma, təkəm, heç kim yoxdur.

Fəxrəddin etiraz etmədi.

- Gəl, evimlə tanış ol. Bax bu mətbəx, bu qonaq otağı, bu hamam, bu isə yataq otağıdır. Necədir? - Sveta şərabdan xumarlanmış gözlərini süzdürdü.

- Gözəldir. Əla. Sveta, bəs ərin yoxdur? Tək-tənha qalırsan?

- Ər? Əri neynirəm. Düşəndə sənin kimi dostlarla əylənirəm. Ərim vardı. Öldü, yeri behişt olsun, - üzərində xaç çəkib güldü, - bir qızım var.

- Bəs hanı?

- Göndərmişəm kəndə, nənəsinin yanına. Qoy tətili orada istirahət etsin.

- Yəqin o, da sənin kimi gözəldir. Bayaqdan istəyirdim soruşum, niyə belə qarayanızsan?

- Mən beynəlmiləlam. Atam, anam, babalarım, nənələrim – eh.., hərəsi bir millətdəndi. Damarlarımda axmayan qan yoxdur.

- Deyirəm axı! Yaxşı, Sveta, daha gecdir. Mən gedim, sən də yat. Gecən xeyrə qalsın, - Fəxrəddin qapıya tərəf addımladı.

- Dayan, hara gedirsən? Bəlkə gecəni mənimlə qalasan? Tək qalmaq istəmirəm. Axmaqlıq etmə, gecəni кeçirəк, səhər gedərsən.

Fəxrəddin heyrətləndi: Svetanı iki-üç görüşə əldə edəcəyini güman etmişdi. Gəl ki, elə birinci gecə arzusuna yetəcəyini gözləmirdi. "Lənət şeytana, istəyir qalım da", - edilən təkliflə razılaşdı. Qayıdıb yerini rahatlamışdı, qeyri-ixtiyari əsnəməyə başladı.

- Ölürsən yatmaq üçün? Ay qoydum səni bu gecə yatasan - Sveta onun əlindən tutub yataq otağına apardı, - bu dünya yatmaq üçün yox, həyatdan zövq almaq üçündür.

Çilçırağın sönməsi gecə lampasının yanması ilə əvəz olundu. Ətrafa xoş, həzin musiqi yayıldı. Sveta yenidən onunla ahəstə rəqsə başladı. Rəqs etdikcə hər ikisinin əynindəki paltarlar hərəsi bir tərəfə səpələndi. Qəlbini əsrarəngiz gecənin yaratdığı hisslər bürümüşdü. Ötən bir ildə heç kim onu belə hərarətlə "qonaq" etməmişdi. Sveta aləm idi. Xüsusilə yataqda. Fəxrəddini elə ehtizaza gətirmişdi ki,... Kafirin qızı yorulmaq bilmirdi. « Eh,... Məhluqə nə bilirdi ki, - Fəxrəddin xumarlanaraq düşünürdü, - Allahın bədbəxti, gəl beləsi ilə ömrünü çürüt...»

"Tanışlıq" gecəsindən sonra onlar bütün məclislərdə birgə görsənirdilər. Az müddət keçmişdi, Svetanın təklifi ilə onun evinə köçdü.

- Hazır ev ola-ola niyə başqa yerdə kirayə qalasan, - Sveta təkidlə məzəmmətləmişdi, - o kirayə puluna isə hər gün mənə gül alarsan. Düz demirəm, əzizim?

Azad arvadı Gülzardan xəbərsiz, burada boşanmış bir qadının evində çoxdan ər-arvad kimi yaşayırdı. Dostunun da Svetanın evinə köçdüyünü eşidib fərəhlənmişdi:

- Afərin Fedya! Gec gəlib, tez öyrənənlərdənsən. Amma bax ha, işini ehtiyatlı tut, mənim günümə düşmə.

Azadın qadından uşağı olmuşdu, uşaq dünyaya gələndən ev-eşiyinə qayıtmağı qadın ona yasaq etmişdi. Yalnız iki-üç ildən bir, iki həftəliyə anasına baş çəkmək bəhanəsi ilə icazə ala bilirdi. Arvada gücü çatmadığından, uşaq böyüyənədək dözmək qərarına gəlmişdi. "Başına gələn başmaqçı olar" deyib yerlisinə xəbərdarlıq edirdi.

Fəxrəddinlə Svetanın münasibətləri istiləşdikcə, əvvəlki çətinliklərini, qəribliyini unudur, yeni həyata uyğunlaşırdı.

Nəhayət, il yarımdan sonra imkan tapıb bir həftəliyə kəndə qayıtdı. Keçən vaxt ərzində heç nə dəyişməmişdi. Kənd yenə də cansıxıcı, darıxdırıcı idi. Uşaqlar da elə çox böyüməmişdilər. Söhbət əsnasında Məhluqəyə çox qala bilməyəcəyini, geri qayıdacağını deyəndə, o, ərinə etiraz etdi. Ancaq Fəxrəddin Svetaya söz vermişdi, qayıtmalıydı. Həm də qazandıqları özünü hələ tam təmin etmirdi. Bir neçə il də xaricdə qalıb işləməliydi. Daha fərqli, təmtəraqlı yaşayış vəd verib, yaxşı pulla dönəcəyini bildirsə də, artıq Məhluqə onun qayıdışına inanmırdı. Buna görə də o, ərini inamsız, gözüyaşlı yola saldı.

Svetanın yanına çatan gün hər şeyi – Məhluqəni, uşaqları, onu narahat edən köhnə ev-eşiyini, kəndini, hətta öz adını da unutdu. Oldu yenə Fedya.

Qulağına çatdı ki, o, vətəndə olanda Sveta başqa kişiylə əylənib. Hirsindən istədi şələ-küləsini yığışdırıb evdən getsin. Sonra düşündü ki, məgər o, Sveta ilə vaxt öldürmək üçün yaşamır? Onun kəbinli arvadı deyil ki, xəyanətdə günahlandırsın, üstünə acıqlansın. Gəzir, cəhənnəmə, özü bilər.

Ancaq dözə bilmədi, eşitdiyi söhbət ona rahatlıq vermədi. Necə olsa da neçə vaxt idi Sveta onun qadınıydı. Qərarını dəyişib, bu halın təkrarlanmaması üçün, səbirsizliklə elə həmin gün dönüklüyünü üzünə çırpdı:

- Sveta, doğrudurmu, mən burada olmayanda, evə yad kişi gətirmisən?

Svetanın sifət cizgisi də dəyişmədi; əksinə çəkinmədən, hünər edibmiş tək təsdiqlədi:

- Doğrudur, gətirmişəm. Burada pis nə var ki.

- Bir həftə tək yatmağa dözmədin?

- Fedya, düzü inanmadım sənin qayıdacağına. Mən də özün bilirsəndə, tək qalmağı sevmirəm.

- Necə yəni inanmadın? Mən gedəndə sənə söz vermişdim axı.

- Azmı söz verib aldadan olur? Qayıdanda inandım ki, sözünün üstündə duran kişisən. Ona görə də, görürsən yenə sənin ləyəm. Bunlar heç. Özünü boş-boş şeylərlə yorma. Sənə sürpriz xəbərim var. Elə bu gün bilmişəm. Deyimmi?

- De, bilim.

Sveta üz gözünə işvə verib nazlandı. Gəlib Fəxrəddinin qucağında oturdu. Üzünü əllərinin arasına alıb dedi:

- Fedya, heç ağlına gələr? Tezliklə körpəmiz olacaq, bu bizi daha da yaxınlaşdıracaq.

Fəxrəddini xəbər sevindirmədi. Əksinə bir az tələşla:

- Körpə? Dəqiq bilirsən məndəndi? Bəlkə heç mənim deyil?

Svetanın sifəti dəyişdi. Oturduğu yerdən dik qalxdı:

- Bura bax, sən məni nə hesab edirsən? Bu ötən həftənin işi deyil, bir aylıqdır. Sən burada olanda hiss etmişdim, dəqiqləşdirməmiş demək istəmirdim. Desəydim, birdən qorxub qayıtmazdın. Bu gün həkimə yoxlatdırmışam, hər şey normaldır. Şübhən varsa, gedək yoxladaq.

- Birdən qayıtmasaydım nə edəcəkdin? Saxlayacaqdın?

- Götüzdürəcəkdim.

Yadına Azadın xəbərdarlığı düşdü:

- Hesab et ki, gəlməmişəm. Gəl götüzdürək. Neynirsən? Bir qızın var bəsindi.

- Xeyr, keçməz. Atası yanımda ola-ola niyə günah edim. Tək deyiləm ki. Zəhmət çəkər, atası saxlar.

Fəxrəddin Svetanı inadından döndərə bilməyəcəkdi. Başa düşdü ki, Azadın xəbərdarlığı əbəs deyilmiş, əhəmiyyət vermədiyi tora ilişib. Nə cavab verəcəyini bilmirdi. Özünə təskinlikk tapmaq məqsədilə, - bəlkə oğlan olacaq, neçə illərdir gözlədiyi ikinci oğlu, - fikirləşdi.

- Yaxşı, qoy sən deyən olsun, - razılaşdı.

Söz ağzından çıxmışdı кi, Sveta sevincək yenidən özünü onun qucağına atdı.

Lakin, onun gözlədiyi olmadı. Səkkiz ay sonra Svetanın ikinci qızı dünyaya gəldi. Fəxrəddin bir qızının da artmasından mütəəssir oldu. Yenə qız. Demək zəiflik onun özündə imiş. Neçə illərdir o, biçarə Məhluqəni günahkar sayırdı. Onun hər qızdan sonra solğunlaşan, qəmgin gözlərini xatırladı. Nə edəsən? Tanrıdan güclə oğul almaq olmaz. Eh, bir də ki, olub guya nə edəcəkdi? O, ata-anası üçün nə etmişdi ki,.. Allaha ağır getməsin, yaxşı ki, dünyadan vaxtında köçdülər, bu günləri görmədilər...

Uşaq olandan sonra Sveta ədalandı, xasiyyəti dəyişdi. Artıq qanuni xanımı kimi hər şeyin yaxşısını istəyirdi. Onun Vətəndə qoyub gəldiyi ailəsinə pul göndərməyinə ərklə narazılıq edirdi:

- Bir əldə neçə qarpız tutursan? Yaşadığın evin tələbatını ödəyə bilmirsən, hələ pul da göndərirsən. Bizim boğazımızdan кəsib pul yığırsan?

Hər dəfə pul göndəriləndə Sveta evdə qanqaraçılıq salırdı. Gizlin göndərmək də mümkün deyildi. Nə vaxtsa eşidib biləndə gizlətdiyi üçün Fəxrəddinin beynini dəng edib zəhlətökənlik edirdi. Odur ki, sonralar pul göndərməyib, qazancının müəyyən hissəsini gizli toplamağı qərara aldı. Qayıtmaq ümidi ilə yaşayıb, illərin keçməsini, o anın yaxınlaşmasını gözləyirdi. Amma nə vaxt? Ölmək istəyəndə? Bilmirdi.

Ancaq, illər keçsə də, nə qədər çalışsa da, evinə aparmaq üçün gizli yığdığı pul çoxalıb arzuladığı qədər olmurdu. Yaşadığı evin, ailənin xərcləri ilbəil artırdı.

Qonşu kənddən gələn Məlik, Vətəndən - Tariyeldən məktub gətirəndə, altı il əvvəli - özünün qazanc məqsədilə gəlişini xatırladı.

Sveta tez məktubla maraqlandı:

- Olmaya pul istəyirlər?

- Yox, narahat olma, pul istəyən yoxdur.

Sveta iyirmi-iyirmi beş yaşlarında olan oğlanı baş-ayaq süzdü:

- Nə gözəl oğlandı. Təzə gəlib?

- Hə. Mən də təzə gələndə belə gözəl idim. Torpağın bərəkətindəndi.

- Yox a, sən yaşlı idin, cavan deyildin.

- Düz deyirsən, özüm yaşlı olsam da ağlım cavan ağlı idi.

Söhbətin mübahisəyə yön aldığını görən Sveta Məlikə şikayətləndi:

- O, yerlilərini görəndə həmişə belə olur, az qalır kövrəlsin. Fikir vermə, tanış olaq, adın necə oldu?

- Məlik.

- Mən isə Sveta. Qonağımız olun. Ürəyiniz istəyən vaxt gəlin.

- Sağ olun.

Baxışarkən gözləri ilə bir-birini yeməsi, "xanımının" gizli, mənalı baxışları Fəxrəddinin heç xoşuna gəlmədi.

Məlik gedəndən sonra Svetaya atmacalı söz demək könlündən keçdi. Nəsə fikirləşib, dinmədi. Danışmağının xeyri də olmayacaqdı. Yenə həmişəki qara-qışqırıqla onu qısqanclıqda günahlandıracaqdı. Son üç ildə bir neçə dəfə Svetanın evdən kənarda başqa kişilərlə görüşünü bilib üzünə vuranda, həmin kişilərin kimliyi ilə maraqlananda, Sveta onun qısqanclığını məsxərəyə qoyar, cavab verməkdən yayınardı…

***

Dünyada yaxşı adamlar olmasaydı yaşamaq mənasız görünərdi. Pis adamların əhatəsində hamıya nifrət etməklə, pisliklərə öyrəşməklə, özü də lənətlənərdi.

Məhlədə Məhluqəni gəlin gələn gündən tanıyan, hörmət edən qonum-qonşu, həmişə olmasa da, arabir onun çətinə düşdüyünü görəndə kömək edib, qayğı göstərərdi. Köməyə ehtiyacı olsa da, gələcəkdə kimlərinsə minnətini eşitməmək üçün heç kəsə ağız açmaq istəmirdi.

Qonşularından daha çox canfəşanlıq edən Əbdül idi. O, kəndin mağazasında işləyirdi. Bəzən əlində pulu olmayanda Məhluqə ondan nisyə mal götürмək məcburiyyətində qalırdı. Xüsusilə ilin soyuq vaxtlarında uşaqlar yavanlıq keçirəndə, ev susuz dəyirmana dönəndə, maaşa qədər mağazadan nisyə mal almaqdan savayı çarəsi qalmırdı. Balalarını ac saxlamayacaqdı кi! Uşağa necə başa salasan кi, pul yoxdu. Paltar istəyəndə yeməyə pul çatmırdı, ərzaq alanda isə paltar ala bilmirdin.

İnsafən, Əbdül ötən illər ərzində heç vaxt Məhluqənin bir sözünü iki etməmişdi. Başqalarından fərqli olaraq ona malların üstünə Gülzarın qaynanası demişkən «dədəsinin qiymətini» əlavə eləmədən, öz qiymətinə satardı. Nə vaxt, nəyi nə qədər nisyə istəsəydi, etiraz etməzdi. Pulunu da gec versəydi, şikayətlənməzdi. Əbdül Məhluqəyə korluq çəkməməsi üçün heç кimsədən çəkinməyərək, bir qardaş kimi ona güvənməsini dəfələrlə bildirmişdi. Hətta bir neçə dəfə pul götürmək istəməmişdi. Lakin, Məhluqə razı olmayıb, onun lütfkarlığını qəbul etməmişdi. Çünki o, ürəyində Əbdülün səmimiyyətinə şübhə edirdi. İnanmağı gəlmirdi. Hələ Fəxrəddin Ru-

siyaya getməmişdən əvvəl bəzən mağazanın qarşısından keçəndə Əbdülün onun arxasınca oğrun-oğrun, hərislikla baxdığını duymuşdu. "Qadam ürəyinə", - deyib, əhəmiyyət verməmişdi.

Əslinə qalsa, Əbdül dünyaya bir gözlə baxırdı. O biri gözü çəp olduğundan zəif görürdü. Odur ki, nəyəsə diqqətlə nəzər yetirəndə zəndlə baxmalı olurdu.

Əbdülün gözü anadangəlmə çəp idi. Ancaq cavan olanda, guya hökumət işində zədə alaraq, görmə qabiliyyətini itirdiyinə görə kağız düzəltdirib əlillik vəsiqəsi, təqaüd və imtiyazlar əldə etmişdi. Elə mağazanı da əlillik imtiyazlarının hesabına işlədirdi. Pulu qaranlıqda belə ayırd etsə də, sərf eləyəndə özünü korluğa vuran Əbdülü tay-tuşları "kor Əbdül" çağırırdılar.

Haqq söz imiş: "Köç geri dönəndə sürünün axsağı irəli düşər". Camaatın güzəranı pisləşib, baş alıb uzaq ellərə gedəndə «əlil» əli çörəkli olmuşdu. Vaxtilə ona gülənlərin, lağ edənlərin çoxusu evini, ailəsini başsız qoyub pul qazanmaq üçün çöllərə düşmüşdülər. Həyat, xoş gün üçün çarpışanları gözəgörünməz sel ağzına alıb yurd-yuvasından didərgin etmişdi. Yaşlılardan savayı kişi qalmadığından Əbdül özünü məhlənin kişisi hesab edirdi. Hər axşam arvad-uşağının yanında, evində rahat oturub pul sayırdı.

Evdə oğlu, qızı, ərəbzəngiyə oxşayan arvadı olmasına baxmayaraq, fürsət düşəndə könlündən məşuqə saxlamaq keçirdi. Məhluqə hər dəfə onunla rastlaşanda, Əbdül nə qədər mələk cildinə girsə də, onun tək gözündəki heç kimin sezmədiyi gizli parıltını görürdü.

O, ayıq olanda ürəyindən keçənləri gizlədə bilsə də, dilinə içki dəyəndə ağlını itirirdi. Dil boğaza qoymur, Məhluqənin qarşısında az qalırdı palaza dönüb yerə sərilsin.

Bir axşam da belə oldu. Evdə çörək bişirməyə un qurtarmaq üzrə idi. Mağazada un həmişə olmurdu. Ona görə də bəzən qabaqcadan xahiş etmək lazım gəlirdi. Əbdül onu görəndə sevindi:

- Qonşu, xoş gəlmisən, nə lazımdı, qulluğunuzda hazıram. Cana can dərmanı istəsən, taparam...

Gözləri də dili sayaq fəallaşmışdı, içkili olmaqdan savayı çox mətləblərdən xəbər verirdi. Məhluqədən çox yox, bir neçə yaş böyük olardı. Bu səbəbdən bir-birilə həmyaşıd kimi rəftar edirdilər.

- Sağ ol, Əbdül. Evdə unumuz bu gün, sabahlıqdı, gəldim öyrənəm, unun varmı?

- Un, nə qədər istəsən. Neçə kisə lazımdır, gəl apar. Canımı qurban edərəm sənə.

- Pulunu maaşda verəcəyəm.

- Ayıb söhbətdir ki, səndən nə vaxtsa pul tələb etmişəm? Mən könül aşiqiyəm, pulu neylirəm....

- Əbdül, kefin ala buluddadır, qalsın, sabah gəlib apararam.

- Ürəyin nə vaxt istəyir, gəl götür. Hə, sənə bir söz demək istəyirdim.

- Nə söz? – Məhluqə təəccübləndi.

- Ağlıma belə fikir gəlib. Mən qabiliyyətli, səliqəli bir qadın istəyirəm ki, iki-üç gündən bir gəlib buraları təmizləsin, qaydaya salsın. Bəlkə razılaşasan, daha başqasına deməyim. Məktəbdəki işin yerində qalsın. Həftədə iki dəfə axşam tərəfi təmizlik apararsan, bəsdi. Maaşını ikiqat verərəm, hə necədi?

Məhluqə nə cavab verəcəyini bilməyib, dinmədi.

- Bilirəm, uşaqları saxlamaq üçün sən nə qədər əzab-əziyyət çəkirsən. Razı olsan heç nə itirməzsən. Burada da elə iş yoxdur. Gördüyün zaldır, bir də bəri gəl, - o, Məhluqəni zalın arxasındakı mallar yığılan anbara tərəf çagırdı, - hə, bu kiçik anbardı. Vəssalam.

Məhluqəni maraq bürüdüyündən onun arxasınca gedərək, anbara sarı boylandı. Dördkünc, yarımqaranlıq, dar, uzun sahədə cürbəcür ərzaq və sənaye malları nizamsız, üst-üstə qalaqlanmışdı. Uzaq küncdə, malların arasında tək adamlıq taxt, stol, stul, dolab gözə dəyirdi. Bura deyəsən Əbdülün xəlvəti yeyib içmək, əylənmək yeri idi.

Təklif Məhluqəni çaşdırmışdı. Tərəddüd içində qalmışdı. «Kor»un mağazasında süpürgəçi olmaq başucalığı gətirməsə də, aldığı zəhmət haqqının ona ziyandan çox xeyri olardı, çətinliyi azalardı. Balalarının ruzisi artardı.

Qapıya tərəf dönəndə ayağı döşəmədəki nizamsız yığılmış karton qutulardan birinə toxunub səndirlədi. Əbdül tez qolundan tutub, onu bərk-bərk özünə sıxdı.

- Ehtiyatlı ol, ayağının altına bax...

Özünü itirmiş Məhluqə müvazinətini düzəltdi. Deyəsən, Əbdül qolunu buraxmağa tələsmirdi. Qolunu onun əlindən çıxarıb aralandı, anbarın qapısından çıxdı.

- Qərarını demədin? - Əbdül səsləndi.

- Sabah deyərəm, - Məhluqə tələşla mağazadan uzaqlaşdı.

Bütün gecəni götür-qoy etdi. Ürəyinin səsini dinlədi. Aydın məsələ idi, Əbdülün xeyirxahlığı səbəbsiz deyildi. Şikarını tora salmaq üçün yemləmək, sonra da əldə edib, iyrənc məqsədinə çatmaq istəyirdi.

Məhluqə iradəsinə arxayın idi. Neçə illərdi, adına güldən ağır söz deyilməmişdi. Bir o qalmışdı kimsə ona ləkə yaxıb, gəzəyən adlandırsın. Özü də kimlə, kimlə, kor Əbdüllə. Əbdülün xam xəyalına gülməyi gəldi. Əgər könlü olmasa, kim onu güclə ya hiylə ilə əldə edə bilərdi? Gəl ki, bu başdan xarabın səxavətindən bir müddət istifadə edərdim, - düşündü.

Səhəri gün o, işləməyə razılıq verdi. Amma bir şərtlə: Həftədə iki dəfə, səhərlər. Daha Əbdülün kefi istəyəndə yox.

Əbdül əlüstü razılaşdı. O, niyyətinə çatmaq üçün hər şərtə razı idi. Səbr etməyə, dözməyə məcbur idi. Məhluqə ilk günlər yanında kiçik qızı, doqquz yaşlı Kifayəti də gətirirdi. Əbdül heç nə demirdi, əksinə, balaca qızla mehribanlıq edir, hər dəfə ona bir ovuc konfet verirdi. Qəlbində "anadan əvvəl, gərək balanı ələ alasan", - fikirləşirdi.

Aylar keçdikcə, günlər üzü qışa gedirdi. Havalar soyuduqca Kifayəti səhərin şirin yuxusundan güclə oyatmaq olurdu. Soyuqdan büzüşmüş yarıyuxulu uşagı görəndə Əbdül narazılıqla anasını qınayırdı:

- Allah sənə insaf versin. Yazıq deyil, uşagı isti yerdən çıxarıb əsə-əsə gətirirsən? Qoy yatsın da doyunca, niyə gətirirsən?

Bu qınaqlar Məhluqəni düşünməyə vadar etdi: Dogrudan da, niyə uşaga əziyyət verirəm. Nədən, kimdən ehtiiyatlanıram? Əbdül nə karədir ki, mənə nəsə etsin. Allah vurmuşdu onu.

Yerə qar oturandan sonra tək gedib gəlməyə başladı. O, mağaza açılmağa yarım saat qalmış, gəlib silib--süpürüb, səliqə-səhman yaradaraq Əbdülün xahişi ilə elektrik peçində çay hazırlayıb, evə qayıdardı.

Kefininn yaxşı vaxtlarında Əbdül onu, özünün istirahət guşəsində oturub çay içməyə dəvət etsə də, Məhluqə müxtəlif bəhanələrlə boyun qaçırardı.

Qarlı qış səhərlərinin birində Əbdül sübh tezdən çay qaynadıb, süfrə açmışdı.

- Xeyir ola, səhər yeməyini burada yeyirsən? – Məhluqə maraqlandı.

- Xeyirli gün içində olasan. Həmişə sən əziyyət çəkirsən, bu gün də mən səni çaya qonaq edirəm. Yaxın gəl. Ləzzətli dəmləmişəm, belə çaydan heç vaxt içməmisən.

- Sağ ol, içən qədər varam.

- Sağ olu içəndən sonra deyərsən, yaxın gəl, çay iç, həm də qızın.

Ayaqları üşüdüyündən qızınmağa razı olan Məhluqə, taxtın üstündə peçə yaxın yerdə əyləşib soyuqdan qızarmış əllərini isitməyə başladı.

- Qış yaman sərt keçir, - Əbdül buğlanan çaynikdən özünə və “qonağına” çay süzdü, - belə soyuqda, özümüzü heç olmasa çayla qızındıraq.

O, stəkanı Məhluqənin qarşısına qoyub yanında əyləşdi. Artıq etiraz etməyə yeri qalmamışdı. Çarə yoxdur, gərək içəm, - Məhluqə fikirləşdi.

- Adama xəcalət verirsən. Yaxşı sağ ol, sənin xatirinə içərəm, - stəkanı götürüb tələsmədən qurtumladı.

- Xətrin əziz olsun, - Əbdül qaynar çayı üfləyə-üfləyə hortuldadıb qurtardı. Məhluqə çayını içənədək dinmədi. Sonra nəsə düşünüb onun qardan islanmış ayaqlarına baxdı:

- Ayaqların üşümür? Niyə ayaqqabını çıxardıb isitmirsən? Çıxar, sıxılma!

O, qeyri-adi cəldliklə əyilib Məhluqənin yarıçəkmə-lərini ayağından çıxartdı.

- Yamyaşdı ki, qar dolub içərisinə, baxmırsan da... Xəstələnərsən…

Məhluqə kişinin istiqanlılığından heyrətə gəlmişdi. Nə vaxtsa Fəxrəddinin qayğıkeşlik edərək ayaqqabısını çıxartmasını, əlini ayağına vurmasını xatırlaya bilmirdi.

Əbdül onun yaş corablarını çıxardıb qurumaq üçün peçin yanına qoydu. Yad kişinin barmaqları qıçına toxunduqca bədənində qəribə hisslər yaranırdı.

- Lazım deyil, özüm, - Məhluqə naməhrəm əlləri kənarlaşdırmaq istədi. Aşağı əyiləndə Əbdülün tək gözündə anlaya bilmədiyi qəribə bir məna gördü. Əbdül əlini onun qıçından çəkməyib, dizinə çatanda saxladı. Məhluqəni süstlük bürümüşdü. Kişi əlinin təması, istisi ağlını almışdı. İllərlə əzizlənməyən, nəvaziş görməyən

dizindən əli kənar etməyə, nəsə deməyə heyi yox idi. Heç bir kişi qadınsız yaşaya bilmədiyi kimi hər bir qadının ürəyində kişi nəfəsinə ehtiyacı vardı.

Əl dizdə qərar tutmayıb aramla onun ağappaq, yumşaq, enli budunun üzəri ilə üzüyuxarı gəlirdi. Belə qədər məsafə azaldıqca Məhluqənin ürək çırpıntıları artır, nəfəsi daralırdı. Elə bil yolayrıcında idi. Nə etməli? Ya qucağına atılıb, bədənindəki odu, təşnəsini söndürməli, oyanan ehtirasına boyun əyməli, ya da yubanmadan Əbdülün əlinin nəvazişindən tutmuş, bütün səxavətindən – hər şeydən imtina etməli idi...

Saniyələr ötürdü. Çoxdan həsrətində olduğu baldırların gözəlliyini duyunca, Əbdülün baxışları xumarlanırdı. Əl belin bir qarışlığına yaxınlaşanda Məhluqə özündən asılı olmayaraq qəlbindəki hansısa qüvvənin təsiri ilə dözməyib ayağa durdu. Nə deyəcəyini bilmədi. Əli kənarlaşıb havada qalan Əbdül yazıqlaşdı. Bir-birlərinə baxmağa sanki çəkinirdilər. Heç biri dinmədi.

Məhluqə daha burda qalmağın yersiz olduğunu anlayıb, ayaqqabılarını geyinib, səssizcə mağazanı tərk etdi...

Evə qayıdanda özünü halsız, xəstəhal hiss etdiyindən yatağa düşməli oldu. Ağrısı olmasa da, içində onu haldan-hala salan, səbəbini dərk etmədiyi təlaş var idi. Adi təlaş dəqiqələr ötdükcə yanğıya, oda çevrilib bütün canını bürüyür, bədənindən çıxıb azad olmağa elə bil yer tapmırdı. Ona nə olmuşdu? Hardan yaranmışdı ondakı bu od, alov? Heç gənclik çağında, qanının coşan vaxtında belə hisslər keçirməmişdi. Əbdülmü etdi? Cavan, enerjili Fəxrəddinin ona çatdıra bilmədiyi daxili oyanışı, bəyənmədiyi kormu yaratdı? İllərlə özünü idarə edən, guşənişin yaşamağı bacaran adamı gözlə qaşın arasında cinmi vurdu?

Bəlkə də içdiyi çaya Əbdül nəsə qatıbmış? „Bu kor əbləhdən nə desən çıxar," - düşündü…

Məhluqə içərisini qarsayan odun qarşısında aciz qalmışdı. Gücü yalnız gözünün yaşını axıtmağa çatırdı, kirimişcə ağlayır, taleyini, gününü düşünüb, yanan ürəyini boşaltmaq istəyirdi. Ağladıqca öz qismətinə acıyır, həyatına, fikir çəkməklə, ürəyində danışmaqla yaşadığı cavanlığı bəxş edən taleyinə nifrət etmək istəyirdi. O nə vaxt insan kimi yaşayacaqdı? Ömründə balalarına hamballıq etməkdən savayı bir gün görəcəkdimi? Nə sevəni vardı, nə doyunca çörək verəni. Əbdülün axsaq arvadı qədər də bəxti olmadı.

Evin ağırlığı boynuna düşən gündən gecələr ər nəvazişi əvəzinə dolanışığının dərdi yuxusuna haram qatırdı. Biyara çevrilən ömrü nə vaxt bitəcəkdi? Bəlkə o biri dünyada bir gün görərdi. Gözlə ki, nə vaxt başıbatmış Fəxrəddinin ya ölüsü gələcək, ya da mürdəşir yumalı dirisi. Bundan sonra çətin ki, ona Fəxrəddindən həyat yoldaşı olar. Görünür o, tənhalıq üçün yaranmışdı... Ömürlük təкliк əzabına məhkum olunmuşdu.

Məhluqə gözünün yaşını axıtdıqca bədənindəki tələtüm azalır, ürəyinə qəribə bir istək yayılırdı. İnana bilmirdi, bu necə hiss idi, haradan yaranmışdı. Ürəyi kişi istəyirdi…

İlahi bu nə işdi? Taleyin ona istehzasıdımı? Utanc idi, deyiləsi deyildi. Ona yaraşardımı heç, bu yaşında könlünə kişi düşsün? Doğrudur, otuz səkkiz yaş çox deyildi, qocalmamışdı. Amma üç qızın, əsgər oğulun anasını eşidən-bilən qınamazdımı? Bu gün, sabah qızına elçi də gələ bilərdi.

Niyə Allah qadını alçaq yaratmışdı? Demək, kişi nə istəsə edə bilər, amma qadın bir qeyrətsizin öhdəsinə qalsa belə, ürəyindən keçən arzusunu boğmalı, təmiz adını gözləməli, ləkələnməməlidir. Əks halda o, fahişə, namussuz hesab edilər. Bəs, illərlə ailəsini atıb arvadı ilə maraqlanmamaq namussuzluq deyilmi? Yoxsa Fəxrəddin bu illər ərzində qadınla olmayıb, ona xəyanət etməyib? Bir dəfə yox, yüz dəfələrlə əylənib. Məhluqəni heç it yerinə də saymayıb. Çox güman ki, evində yaşadığı arvaddan uşaqları da olub. Hə, ona olar. Çünki kişi olmasa da, kişi paltarı geyinir. Amma Məhluqə don geyinib, qeyrət gözləməli idi... Fərli kişi ailəsinin, ocağının başında olar. Arvadı da alar dizinin dibinə. Yoxsa... Fəxrəddin yaxşı yaşamaq bəhanəsiylə ailəsini atmaqdan başlamış, könlündən keçən hər yaramazlığı edə bilərdi. O, insan idi, nə qədər səhv etsə də bağışlamaq mümkün idi. Lakin, Məhluqə insan olmaqdan əvvəl qadın idi. İnsan kimi bir dəfə səhv etsəydi, ömrüboyu gözükölgəli olacaqdı. Onu anlayan, başa düşən tapıl-mayacaqdı…

Əbdül əlini qıçından çəkməyib baldırı ilə üzüyuxarı aparanda ürəyi uçunsa da, özünü ələ ala bilməyəcəyindən, „korun“ qucağına atılıb rüsvay olacağından qorxmuşdu. O, görən düz hərəkət etdimi? Əbdülə qarşı kobudluq etməsə də, niyyətinə çatmağa da qoymadı. Var qüvvəsi ilə içində oyanan ehtirası boğdu. Neçə illər idi o, qadınlığını unutmuşdu. Düzünə qalsa, bu çəpgözdən elə də xoşu gəlmirdi. Gəl ki, Əbdül hər hansı xəyaldan gerçək idi. Allah onu kişi qiyafəsində yaratmışdı.

Məhluqə böyük qızı ilə məktəbə xəbər göndərdi ki, xəstələndiyi üçün işə çıxmayacaq. Özünü yaxşı hiss etmədiyinə görə axşamadək yatağından durmadı. Səhərdən onu rahat buraxmayan ürəyindəki istəyin gücü zəifləsə də, tam çəkilib getməmişdi. Canına yayılan o istəyi heç çürə кönlündən кənarlaşdıra bilmirdi. Nəsə etməli, bu qeyri-adi durumdan özünə gəlməliydi.

Hava qaralana yaxın ayağa durdu. Fikri qəti idi: Əbdülün yanına qayıtmalıydı! Mağazanın işini sabaha saxlamamaq adı ilə qızlarını arxayınlaşdırıb evdən çıxdı. Əbdül onu görəndə gözlərinə inanmadı. O, Məhluqənin inciyərək çıxıb getdiyini, bir daha mağazaya ayaq basmayacağını güman edib, arzusunun ürəyində qaldığına təəssüflənmişdi.

Əbdül zaldakı iki alıcısını tələsdirdi:

- Tez eləyin, mağazanı bağlayıram, "uborka" vaxtıdır.

Alıcıları yola salıb, qapını cəftələyib sevinə-sevinə "mini" kabinetinə qayıdanda Məhluqənin səhərki yerində oturub, fikrə getdiyini gördü. Yaxınlaşıb üzürxahlıq etdi:

- Sən Allah, incimisənsə, bağışla məni...

Məhluqə başını qaldırıb Əbdülün düz baxan gözünün içinə baxdı:

- İçərimdə yanğı hiss edirəm, çay ver. Səhərki çayından qalıb?

Qadının baxışlarının xeyli dəyişdiyini duyub, ürəyində qorxu yaranan Əbdül sualı eşitcək udqundu:

- Çay nədi, canımı verrəm sənə.

O, vaxt itirməyib, termosdan çay süzdü.

- Əbdül, bu səhərki çayın dadını vermir. Səhər çaya nə qatmışdın?

Onun rəngi avazıdı:

- Heç nə. Təmiz "İndeyski"di, yəqin termosda qalıb, dadı qaçıb.

- Sənin gözün nahaqdan çəp deyil. Bildiyin qədər çəkəsən. Gəl corabımı çıxart, islanıb yenə ayağım…

Məhluqə taxta uzanıb halsızlıqdan gözlərini qapadı. Əbdül ətə cuman ac pişik kimi ona yaxınlaşıb corablarını çıxardı, səhər yarımçıq qalan, neçə illər arzuladığı məqsədinə çatmağa tələsdi. Həm də hansısa mərdiməzar qəfil gəlişi ilə işi korlaya bilərdi. Artıq vaxt itirməyə dəyməzdi: toruna saldığı şikarı, öz ayağı ilə gəlib uzanıb taxtında onu gözləyirdi…

Məhluqə gözlərini yumub nakam dünyasından ayrılmışdı. Xoş təmasdan xumarlanır, qəlbinə sərinlik yayılır, özünü ayrı bir aləmdə hiss edirdi. Çoxdan belə duyğulu olmamışdı. Hələ yetkinlik vaxtında yolunda ölməyə hazır olduğu müqəddəs sevgisi dolmuşdu ürəyinə. Sonralar o müqəddəs sevgisinin Fəxrəddin olduğunu hesab etsə də, yanılmışdı. Xəyala dönüb, illərdən bəri qəlbinin dərinliklərində itmişdi...

Daima xəyalında yaşatdığı sevginin qayıdışından sevinən Məhluqənin yumulu gözlərindən yaş gilələri yanağına süzülürdü. Onu yenə itirəcəyindən şirin aləmdən ayrılacağından qorxub gözlərini açmaq istəmirdi… Duyduğu ləzzət ona dünyanı unutdurmuşdu.

Birdən üstünə düşən ağırlıqdan nəfəsi daraldı, gözlərini açdı. Əbdül üzərinə uzanıb, qorxunc tüklü qollarıyla çiyinlərini qucaqlamaq istəyirdi. Əbdülü görcək xəyalı alt-üst oldu, qəlbindəki qonağı işıq kimi çəkilib getdi. Daha ürəyinin təşnəsi, yanğısı da qalmamışdı. Heyrət içində ani sürətlə düşündü: hansı ağılla gəlib burda uzanmışdı? Onun harasına yaraşırdı belə iş tutsun? Dünyada başına kişi qəhət idimi, elə gərək bu tüklü ayı ilə yataydı? Ay Allah, bu nə biabırçılıqdı. Görən, bilən olsa nə deyərlər, nə üzlə çıxar camaatın içinə?..

Məhluqə onu üzərindənn kənara itələyib, ayağa durdu, əyin-başını düzəltdi. Əbdül gözləmədiyi sərt hərəkətindən narahat oldu:

- Nə oldu sənə, hara tələsirsən? Tələsmə canım, gəl bir az da əylənək, sonra geyinərsən. Adam da belə кefi yarımçıq qoyar?

O, Əbdülü eşitmək belə istəmirdi. Ürəyində ona da, özünə də lənətlər yağdırırdı. Bilirdi, çoxdan bilirdi Əbdülün niyyətini, nə etmək istədiyini. Bilə-bilə oyuna baş qoşdu. Bu mürtədi qadın hiyləsiylə fırladacağını güman etsə də, özü uduzdu. Əbdül isə axır ki, mənfur niyyətinə nail oldu.

Axı, bura niyə gəldi? Nə idi, hansı qüvvə idi, onu bura dartıb gətirən? Hamısı o zəhərə dönmüş çay qonaqlığından başladı. Sonra da Əbdülün it kimi qıçlarına yalmanması ağlını dəyişdi. Özünü, dünyanı, hər şeyi unutdu. Sanki, başqa aləmdə idi. Ağlı qayıdanda iş-işdən кeçmişdi. Nə etməli, olan olmuşdu. Qəşəmi aldadıb qucağından çıxa bilməyinə baxmayaraq bu dəfə tora düşmüşdü. Təki Allah onu bu rüsvayçılığın axırından saxlasın... Məhluqə ürəyindəki fikirlərdən başını itirsə də, pərtlikdən səsini içinə qısmışdı. Əbdülə əhəmiyyət verməyib, paltarını qaydaya salıb, qapıya tərəf getdi. Cəftəni açıb çölə çıxanda arxasınca Əbdülün səsini eşitdi:

- Yenə gedir. Niyə gedirsən? Hara getsən axırı bura qayıdacaqsan...

O gündən ayağını mağazadan kəsdi. Bağrını dəlib deşən əzabverici anları xatırlamamaq üçün Əbdüllə qarşılaşmamağa çalışır, alver etmək lazım gələndə isə mağazaya uşaqları göndərərdi. Əbdül dəfələrlə işinə qayıtmaq üçün xəbər göndərib, mağazaya dəvət etmişdi. Ancaq onun bütün cəhdləri Məhluqəni inadından döndərə bilmədi.

Günlər ötdü, aylar keçdi. Qarlı-şaxtalı qış ömrünü başa vurub, yerini ilıq nəfəsli, gül-çiçəkli yaza verdi. - Havalar dəyişdikcə onun da əhvalı tez-tez dəyişirdi. Bəzən halsızlaşır, başı ağrıyır, əhvalı pozulurdu. Qan dəyişən vaxtın olduğunu, qışdan canında qalan soyuqdəymənin əlamətinin üzə çıxmasını güman edirdi. Naxoşluğunu hiss edən kimi, qızları başına yığılıb ürək-dirək verdilər:

- Ana, sənə nə olub, maşallah! Özündən xəbərin var? Günü-gündən kökəlirsən.

Qəbul etdiyi dərmanlardan sonra ürəyi bulanır, qaytarmağı gəlir, bacarmır, əzab çəkirdi. Ya dərman köhnədir, ya da mədəm pozulub, - fikirləşdi. Səhəri gün axşamadək mədəsini boş saxladı. Ancaq xeyri olmadı. Ürəkbulanması ara vermirdi.

- Ay Allah, bu nə işdi gəldi başıma. Kimə deyim dərdimi? – Nəsə xatırladı, beynində canlanan fikirdən bədəninə soyuq tər gəldi, - yoxsa “ilişmişəm”? Olmaya hamiləyəm? Kimdən? Ər deyilən kəsin üç ildir üzünü görmürəm… Sanki içində nəsə qırıldı, qanı dayandı: - Kimdən olacaq, kordan! Yox, kor o deyil, kor mən oldum ona baş qoşan yerdə. Kor Fəxrəddin oldu, ilim-ilim itdi. Ailəsindən, yurdundan didərgin düşdü…

Həyəcandan Məhluqənin canına titrətmə yayıldı: səhər təcili rayondakı həkimə yoxlatmalıyam. Kənddə heç kəs bilməməlidir. Evdə də. Heç kim! Necə olur-olsun canımı bu xətadan qurtarmalı, qurtulmalıyam.

Əgər həqiqətən uşağa qalıbsa, onun gələcəyi necə olacaq? Deməyəcəklər, bunu haradan qazanmısan? Dörd uşağın az idi, beşincini neynirsən? Neçə illərin arvadısan, yorğalıq edirsən? Ərindən soraq yoxdursa, gərək kiminləsə gəzəsən? Sakit otursan ölərsən? Gəzib aylandığın kimdi? - Kor Əbdül. Yenə bir əməlli adam olsaydı, dərd yarıydı. Adam tapdın özünə yaraşdırmağa? Ağıl dəryası. Əbdülün nəyi ağlını aldı? Zəif görən çəp gözü, yoxsa alicənablığı? Onun hiyləsinə, məkrinə uyanda ağlın dabanında idi? İndi kor şoğərib bilsə ki, ondan uşağa qalmısan, yaxın duracaq? Gözlə ondan olmayan кişiliyi... Heç boynuna da almayacaq etdiklərini. Özünü elə aparacaq ki, guya mələkdir, onun ümumiyyətlə olanlardan xəbəri yoxdur. Hamısı yalandır, böhtandır.

Lap tutaq ki, yaxın dursa, boynuna alsa belə, o canını bədbəxtlikdən qurtara bilməyəcəkdi. Ailədə, uşaqlarının arasında ikitirəlik yaranacaqdı. Nə də ondan Əbdülə arvad olmayacaqdı. Əksinə, Əbdülün arvad-uşağı ona düşmən gözü ilə baxacaqdılar. Hər yerdə onu "korun oynaşı" sayacaqdılar.

Səhər açılanadək ürəyini didib-parçalayan iztirablardan gözlərini yummadı. Sübh tezdən nigarançılığa son qoymaq ümidiylə şəhərə, həkimin qəbuluna yollandı.

Zənnində yanılmamışdı. Həkim sevinə-sevinə ona hamilə olduğunu bildirdi. Məhluqənin peşmançılıq-dan az qala ürəyi dayanacaqdı, göz yaşlarını saxlaya bilmədi. Əvvəlcə xoş xəbərin təsirindən ağladığını güman edən anası yaşında həkim onun kədərini duyanda təəccübləndi:

- Niyə ağlayırsan, qızım? Sevin ki, övladın olacaq. Adam tanıyıram, uşağı olması üçün bütün var-dövlətindən keçir. Sən isə ağlayırsan?

- Anam, dörd uşağım var, istəmirəm. Qurban olum sənə, kömək elə ondan azad olum...

- Necə kömək edim? Vaxtında gəlsəydin kömək edərdim. Artıq gecdir. Hamiləliyin üç aydan adlayıb dördüncüyə. Belə olanda abort məsləhət görülmür. Yaşın o yaş deyil, ölə bilərsən. Ola bilsin böyük məbləğdə pulun xatirinə hansısa həkim boynuna götürər. Ancaq mənlik deyil.

- Başına dönüm, həkim. Onsuz da mən ölməli adamam, razıyam ölməyimə. Qoy ölüm, qorxma, məndən ötrü sənə kimsə söz deməyəcək, - danışdıqca qəlbində gizlətdiyi qəhər onu boğur, hıçqırtısı dayanmırdı.

- Yox qızım, mən bəndədən yox, Allahımdan qorxuram. Sən də get, Allahın iradəsinə tabe ol. O, bilən məsləhətdir.

Məhluqə Allahın iradəsinə kor-koranə tabe olmaq istəmirdi. Allah buyurub: səndən hərəkət, məndən bərəkət. Necə olur-olsun bir yol tapmalıyam, rüsvayçılığın qabağını almalıyam. El-oba, camaat içində biabır olmaq, bic anası sayılmaq... Dəhşətdir... Hərənin ağzından bir avaz gələcək. Arxasınca zurna çalıb, güləcəklər. Evdə qızlarının üzünə necə baxacaq? Onları da bədbəxt edəcək. Anası bic doğan qızı kim alar?

Əsgərlikdən ata ocağına, ana yanına qayıdan əsgər balası Şakiri nə üzlə qarşılayacaqdı? Hələ Fəxrəddin? Günlərin birində tapılıb gəlsə, öz qeyrətsizliyini kənara qoyub, onun üçün namusdan dəm vuracaqdı.

Hamı, hamı onu qınayacaqdı. Bir nəfərin də olsa yazığı gəlməyəcəkdi. Necə oldu belə alındı, heç kimi maraqlandırmayacaqdı. Hətta desə ki, Əbdülün toruna düşdü, o əclaf etdi, xeyri yoxdu. "İnək göz etməsə, buğa yaxın durmaz" məsələni xatırladıb, əsl günahkar onu sayacaqdılar.

Daim əzab-əziyyətlə, halal zəhmətinlə yaşayasan, bir kəsə pisliyin keçməyə. Bəs niyə onu Allah belə cəzalandırır?! Kimə yalvarsın, kimə desin dərdini? Bəlkə Əbdülə ağız açıb, pul alıb, abort etdirsin. Alınar, lap yaxşı, üstündən ağır ləkəni yox edər. Uğursuz olub ölər, o da yaxşı. Elə üzüqara yaşamaqdansa, üzüsulu ölmək şərəflidir. Əslində bu vəziyyətə düşməsinin baiskarı Əbdüldür. Niyə də kömək istəməsin?

Elə həmin günün axşamı mağazaya gəldi. Əbdül onu görüb şit-şit irişdi:

- Gəl çıx da, hardasan? Səni gözləməkdən yoruldum. Dedim axı, hara getsən, gec-tez qayıdıb gələcəksən yanıma. Arxayın ol, işini başqasına verməmişəm.

- Xeyr, işləməyə gəlməmişəm. Vacib bir məsələ var. Gərək kömək edəsən!

- Nə məsələdir, danış görək. Gücüm yetəni əsirgəmə-rəm. Alacağın var?

- Bəlaya düşmüşəm, özümün də xəbəri olmadan. Əsas günah sənindir. Bir dəfə qələt edib sənlə çay içdim, nə etdin, etmədin, ağlımı alıb məni yatağına saldın. Gözün aydın, səndən uşağa qalmışam.

- Nə danışırsan, nə uşaq? - Əbdülün ağzı əyildi.

- Hə, indi ikimiz də rüsvayi-cahan olmamaq üçün pul ver, təcili abort etdirməliyəm, - onun qulağına pulun miqdarını pıçıldadı.

Məbləği eşitcək Əbdülün gözləri kəlləsinə çıxdı:

- Yox, bacı, xətavı məndən uzaq eylə. O qədər pulu yarım aya ancaq toplayıram. Bəs sonra özüm nə edim?

- Əbdül, başqa yolumuz yoxdur. Əgər uşaq doğulsa, sənin adını gizlətməyəcəm.

- Kim sənə inanacaq? Bəlkə heç məndən deyil, başqasındandı. Necə sübut edəcəksən, şahidin var? - Əbdülün üzü bozarıb, dodağı səyridi.

- Gəzəyən özünsən. Mən sübut edərəm. Lazım gəlsə, səni məhkəməyə də verəcəyəm.

- Xox, qorxdum! Məni məhkəmə ilə qorxudursan, - Məhluqə Əbdülü tanıya bilmirdi, - mən də məhkəmədə hamıya bəyan edəcəyəm ki, kimsəni zorlamamışam, könlünə düşüb, öz ayağı ilə gəlib məni vadar edib. Yoxsa, elə olmadı, səhv deyirəm?

Məhluqənin başına elə bil bir qazan qaynar su töküldü. Heyrətindən dondu: İlahi, insan nə qədər Allahsız olarmış? Niyə belələrini yer üzərindən silmək əvəzinə meydan sulatdırırsan?

Aldığı söz yarasından çətinliklə özünə gəlib dilləndi:

- Daha sənin kimi qırmızısifət, şərəfsiz adama sözüm yoxdur. Gərək sənin bu tay gözün də görməyəydi, - zəndlə ona baxan tək gözə ağız dolusu tüpürdü.

Sifətinə yayılan tüpürcəyi silməkdən qeyri çarəsi olmayan Əbdülün mağazadan çıxan Məhluqənin ardınca nəsə deməyə cürəti çatmadı.

***

Tariyelin məktubu Fəxrəddinin sakit güzəranına daxili narahatlıq, əsəbilik gətirmişdi. Rahat yuxu da yata bilmirdi...

Rəqs meydançasında qızğın rəqs gedirdi. Rəqs edən kişilərin əksəriyyəti yerliləri idi. Həvəslə sarışın qadınlarla əylənirdilər. Birdən gözü yaraşıqlı, ona tanış gələn qadına sataşdı, ürəyi yerindən oynadı. Qadın Məhluqəyə oxşayırdı. Fərqi saçlarının sarışın olmasındaydı, onunla rəqs edən kişinin simasını haradasa görmüşdü, kimliyini ayırd etməyə çətinlik çəkirdi. Rəqs edə-edə meydançanın qaranlıq tərəfinə, ağacların altına tərəf çəkildilər. Özündən ixtiyarsız arxalarınca getdi. Kişi qadının belini qucaqlayıb, qulağına nəsə pıçıldayır, onunla öpüşməyə çalışırdı. Qadının qolukəsik paltarının sol çiyinliyi sürüşüb qoluna düşmüşdü. Çiynindəki tanış xal Fəxrəddini həyəcanlandırdı. Yox, yanılmamışdı. Ola bilsin o qadın Məhluqə idi. Bura, ona həddini anlatmaq üçün gəlmişdi. Lakin bu işi tək özü bacarmazdı. Kim isə kömək edib? Kim? Tariyel? Hanı o? Hər tərəfə göz gəzdirdi. Yerliləri xəbərdar imiş. Hamısı ona tərəf istehza ilə gülümsəyirdilər. Fəxrəddin dəli oldu, ona gülənlərə bağırdı: "Bəsdirin, hırıldamayın! Əl çəkin məndən!.."

Hövlanak yuxudan ayıldı. Gördüklərinin yuxu olduğuna şükür etsə də, məktub xatirindən çıxmırdı. Səhər, ya axşam, günün hər hansı anında məktubdakı sözlər, fikirlər yadına düşür, ovqatı təlx olurdu. Məktubdan çox, gözündə günü-gündən şeytana oxşayan Məlikin həyatını əzaba döndərməsi, Fəxrəddində Tariyelə qarşı nifrət yaratmışdı. Elə bil məktubla yanaşı Məliki də onun üstünə məqsədli şəkildə sifariş etmişdilər.

Məlik məktubu gətirdiyi gündən tez-tez onlara qonaq gəlirdi. Keçmişdə Azad Fəxrəddinə necə kömək edib yerləşdirmişdisə, o, da həmyerlisinin kirayə otaqla, işlə təmin olunmasında əlindən gələni əsirgəməmişdi. Əvvəllər onun əlidolu, pay-pərə ilə gəlişini etdiyi köməyə görə minnətdarlıq ifadəsi kimi qəbul edirdi. Ancaq həftələr, aylar keçdikcə Məliklə Svetanın isti münasibəti, hətta o, evdə olmayanda da gəlib-getməsi Fəxrəddinin ürəyincə deyildi. Məlikin aramsız gediş-gəlişindən şübhələr qəlbini didib-parçalayırdı. Nə edəcəyini bilmirdi. Onları "iş başında" tutmasa, xəyanət etdiklərini necə sübut edə bilərdi? Sübut, yalnız sübut lazımdır. Yoxsa əksinə, onu böhtançı hesab edib, borclu çıxaracaqdılar. İnsanlar niyə belə bədəsil olurlar, İlahi? Sveta onu evinə saldı, uşaqları oldu, vətəndəki ailəsini unutdurub öz ailə üzvü etdi. İndisə ondan cavanını görüb xəyanət edir. Bəs Məlik? Məgər başına qadın qəhətdir? Guya Sveta ilə onun ailə kimi yaşadığını görmür, ya da görmək istəmir. Vicdansız...

Fəxrəddinin nigarançılığı uzun çəkmədi. Bir gün işin qurtarmasına xeyli qalmış nəsə xatırlayıb Məlikinşiş yerinə getdi. Onun harasa çıxdığını söylədilər. Kirayə qaldığı evə baş çəkdi, yox idi.

“Yəqin Svetanın yanındadı, indi kef edirlər”, - hirsindən boğuldu, rəngi qaraldı. Tez evə yollandı.

Sveta onu yataq paltarında təəccüblə qarşıladı:

- Fedya, xeyir ola günün-günorta çağı gəlmisən. Nə olub?

Fəxrəddin qəzəbini gizlədib, hisslərini bildirmək istəmirdi. O, özünü toplayıb Məliklə rastlaşacağı qeyriadi görüşə hazırlayırdı:

- Heç nə, sən narahat olma. İşdə açarın biri yoxa çıxıb, gəldim bəlkə evdə paltarımın cibində ola. Gərək qarderoba baxam. Yatmışdın?

Sveta sakit halda əsnəyib əlini ağzına dayadı:

- Hə, istədim bir az dincələm. Get bax, paltarlarının hamısı yerindədi.

Fəxrəddin yataq otağına tərəf getdi. Ürəyinin döyüntüsünü qulağında eşidirdi: o, indi Məliklə rastlaşacaqdı!

Çarpayıda qarmaqarışıqlıq idi. Döşəkdən savayı hər şey baş ayaq idi. Qarderoba yaxınlaşdı. Ola bilərmi ki, Məlik orda gizlənsin, - fikirləşdi. Harda görsəydi, tutub boğazını üzəcəkdi, onun namərdliyini bağışlayaa bilməzdi.

Qarderobda kimsə gizlənməmişdi. Nəsə axtarırmış tək paltarların ciblərini eşələdi. Bəlkə o haqsızdır? Sveta demiş, qısqanclıq gözlərini örtüb, boş yerə özünə əzab verir?..

Bir az sakitləşdi. Bayaqdan yerindən çıxan ürəyini sakitləşdirmək üçün çarpayının qırağına əyləşib, alnını sağ əlinin ovucuna dayadı. Otağa girən Svetadan səbirsizliklə soruşdu:

- Yataq niyə bu gündədir? Elə bil üstündən qasırğa keçib.

- Yuxuya gedə bilmədim. Özün bilirsən ki, mən yuxuya gedənəcən yatağım nə əzab çəkir. Açarı tapdın?

Gözlərini döşəmədən ayırmadan cavab verdi:

- Yox, bilmirəm harda itirmişəm.

- Qəm eləmə, təzəsini alarsan, onsuz da sən açarını çoxdan itirmisən, - gülə-gülə otaqdan çıxdı.

Fəxrəddin Svetanın atmacasından qımışdı. Başını ovucundan ayırıb ayağa durdu. Ona elə gəldi ki, daxili bir səs Svetanın zarafatına qoşulub onunla məzələnirdi: Çarpayının altına baxmadın... Uşaqlıqda işi çətinə düşəndə, çarpayının altında gizlənməyi yadına düşdü. Əyilib diqqətlə çarpayının altına baxdı. Aşağı başda yerə nəsə düşmüşdü. Əlini uzadıb götürdü. Bu bura niyə düşüb? Vəsiqə idi. Üstündəki yazının sözlərini, hərflərini, doğma rəmzlərini görcək üzünə işıq yayıldı: "Şəxsiyyət vəsiqəsi. Bu mənimdir? Burada nə gəzir?" Tələsik içərisinə baxdı. Sənəddə Məlikin şəklini görcək sifətindəki işıq yox olub, bulud təki qaraldı.

"Demək bir az əvvəl o, burada olub. Çox güman ki, axtardığımı xəbər veriblər, o da mən gələnəcən aradan çıxıb".

Fəxrəddin yenidən oturduğu yerə çökdü. Tapdığını Svetaya göstərməyinin əhəmiyyəti olmayacaqdı. Necə olur-olsun vəsiqənin oradan tapılmasını Sveta yüz yerə yozub şübhələrini alt-üst edəcək, sudan quru çıxacaqdı.

Məliklə yatdığını boynuna alsa da, Svetaya nə edə bilərdi? Vəziyyət gərginləşərsə yalnız pencəyini götürüb evdən çıxmağa gücü çatardı. Sveta düz deyir, o, tək açarını deyil, ona bel bağlayan gündən mənliyini də itirmişdi. Tariyelin məktubu gözünün önünə gəldi. Maddi qazanc xətrinə nəinki utanmaq, xəcalət çəkmək hissini, qururunu, şəxsiyyətini də itirmişdi. El-obasını, ailəsini unutmuşdu. Hər vaxt Sevtanın xərcləyəcəyindən qorxub gizlin yığdığı puldan savayı nə qazanmışdı? Qızı hesab edilən, amma heç qanı qaynamayan balaca Lenanın da onun olub-olmamasını Allah bilirdi. Əslinə qalsa, Sveta özü də bilmirdi. Çox vaxt kefli olduğundan aşkar, ya gizlin dəyişdiyi kişilərin hansı ilə nə vaxt yatdığını özü də ayırd edə bilmirdi. Lenanı Fəxrəddinin qızı olduğunu hesab etməkdə güman ki, əsas məqsədi onu özünə bağlamaq və gəlirindən faydalanmaq idi. Rəfiqələri arasında əri olması ilə qürrələnirdi.

Fəxrəddini Məlikin saymazlığı hədsiz qəzəbləndirirdi. Ailə münasibətində olduğunu bilə-bilə çəkinmədən Sveta ilə yaxınlıq etməsi, onun dost-tanış arasında başını yerə soxmaqdan, qeyrətsiz etməkdən başqa şey deyildi. Hər haldaFəxrəddin belə qiymətləndirirdi. Eyni torpaqda boya-başa çatan, düz-çörək kəsən həmyerlisindən bu cür hərəkəti gözləmək heç vaxt ağlına gəlməzdi. Onun bu həyasızlığına dözmək, nakişiliyi boynuna almağa bərabər iş idi. Elə bu gün mütləq Məliki tapıb dərsini verməliydi, - fikrində qət etdi, - sabaha qalmamalıydı!.. Ayağa durub otaqdan çıxdı.

- Hara gedirsən, nə oldu sənə? - Sveta Fəxrəddinin əsəbi halda çöl qapısına tərəf getdiyini görəndə qaygılandı.

- Görəsi işim var, gəlirəm.

O, Məlikin ardınca bazara getdi. Məliki axşamtərəfi işdən çıxan zaman yerlilərinin əhatəsində gördü. Əvvəl onu kənara çəkib gizlincə söhbət etməyi düşünsə də, içindəki hikkəsindən səbr etməyib, hamının qarşısında biabır etməyi özlüyündə daha faydalı hesab etdi:

- Məlik, - çarpayısının altından tapdığı vəsiqəni nümayişkaranə göstərdi - bu vəsiqə sənindir?

Məlik vəsiqəni görcək tanıdı, özünü itirdi:

- Vəsiqə əlinə hardan düşüb? Nə yaxşı, itəcəkdi, düşən yerini də bilməyəcəkdim.

- Düşən yerini indi deyim, qoy hamı sənin çörəyi dizinin üstə olduğunu bilsin.

Ətrafdakılar çox ciddi sözün deyiləcəyini başa düşüb, maraqla nəzərlərini ona dikdilər.

- Bilsən, haradan tapmışam? Mənim yataq otağımdan, çarpayının altından.

- Ola bilməz, - Məlik udqundu, - ora necə düşüb, anlaya bilmirəm.

-Özünü tülkülüyə vurma. Əclaf, bu boyda şəhərdə başına gəzəyən qəhət idi, mənimlə yaşayan qadına ilişirsən? Kəsdiyin çörək gözünü tutsun…

Qəzəbindən titrəyən Fəxrəddin vəsiqəni Məlikin üzünə çıprmaqla yanaşı, heç kimin gözləmədiyi cəldliklə onun sifətinə sol tərəfdən var gücü ilə bərk sillə şappıldatdı. Sifətinə dəyən zərbədən gözlərindən od çıxan Məlik yerində səndirlədi. Dostları ikinci zərbənin vurulacağını duyub, Fəxrəddinin qarşısını kəsdilər. Məlik arxaya doğru addımladı. Təhlükənin sovuşduğunu hiss edib, hirsindən çığırmağa başladı:

- Mənə nə deyirsən, mənim nə taxsırım var? Gözəlçən özü şərait yaratdı, mən də əcəb edirəm. Görünür daha onu razı sala bilmirsən, qocalmısan...

Məlik cavan olsa da çəlimsiz idi. Qarışısını kəsməsəydilər bəsdi deyincə əzişdirərdi.

- Yaxşı, sən görərsən nə edəcəyəm. Buna bax, indi kişi olub. İllərlə arvad-uşağını axtarmır, buraxıb Allahın ümidinə, qeyrət çəkənsən, get qızlarının, kəbinli arvadının qeyrətini çək. Yoxsa onun-bunun artığının yox!

Sözlər Fəxrəddinin üzünə onun vurduğu şillədən betər cavab zərbəsi oldu. Üzünün rəngi ağardı, yer-göy başına hərləndi. Dartınıb onu saxlayanların əlindən çıxmağa çalışdı. İstədi yüyürüb, Məlikin boğazını üzüb, ürəyini dağlayan, bıçaq zərbəsindən iti sözlər deyən səsini kəssin.

- Eyibdir, qurtarın, yadları bizə güldürməyin, - ətrafdakılar yerbəyerdən onları qınadı. Qollarını tutub sakitləşdirməyə çalışan yerliləri onu кənara çəkdilər. Deyəsən, o, Tariyelin məktubunu oxuyub, - Fəxrəddin düşündü, - yəqin Məhluqə barəsində nəsə bilir, deməyə qorxur... Yox, kəndə getməli, uşaqlarına, arvadına dəyməlidir. Şübhələr içində nə qədər yaşamaq olar? Məhluqənin gözlərini görən kimi həqiqətin nə yerdə olduğunu biləcəkdi. Əgər kiməsə qoşulub xəyanət edibsə, onu bağışlayacaqmı? Xeyr, heç vaxt. Bəs özü? Əslində günah-

kar özü deyilmi? Kim idi, nə idi onları belə vəziyyətə gətirib çıxaran. Təkcə güzəranmı? Niyə vaxtında doğma yurdunda yaşamağın yolunu tapa bilmədi?

Məhəllə qonşusu «kor» Əbdül kimilər şikəst, əlil "maskası" altında, bir parça çörək qazanmaq adı ilə evindən dərbədər olan camaatın çətin günündən faydalanıb alverlə varlandılar. Yaşamaq çətinləşdikcə haram hörmətə mindi, rüşvət qanuna çevrildi. Rüşvət vermək, haram əldə etmək bacarmadığı üçün yaşadığı mühitə uyğunlaşmaq əvəzinə başını götürüb, elindən uzaq qaçdı. Güman edirdi ki, caamat arasında onu üzüqara edən təkcə pulsuzluğudur. Ancaq indi anlayırdı ki, insanı həyatda kasıblıqdan da betər üzüqara edən işlər var. Bunları bilmək üçün isə pulun olmalıdır.

Arvadının xəyanət etdiyini hiss edərsə, kənddəki hər şeydən əlini üzüb, evini, həyətini Məhluqəyə, uşaqlarına bağışlayıb həmişəlik onlardan üz döndərəcəkdi. Çünki özgə torpaqda necə rəzil günə düşsə də, pozğun qadınla yaşasa da, ona kənddə eyib etməzlər. Amma, arvadı Allah eləməmiş ayağısürüşkənlik edibsə, ömrünün sonunadək gözükölgəli qalacaq "xoşqeyrət" adına layiq görüləcəkdi. Onsuz da taleyi, alın yazısı necə yazılıbsa onu yaşamalıdır. Fələk çəmbərini tərsinə çevirəndə istər yad, istərsə də doğma şəhər olsun, xeyri yoxdur. Əmin idi ki, elə burda da onu yaxşı heç nə gözləmirdi. Hələ cavandı, canı suludu, işləmək qabiliyyəti var. Svetaya da bunlar lazımdı, onun qazancına, gətirdiyi pula hörmət edir, qısqanclığını bilib aşkarcasına gəzməkdən çəkinir, əməllərini bir təhər ört-basdır edirdi. On-on beş il keçəcək, vəziyyət dəyişəcəkdi. Qocalmış Fəxrədinin asılı vəziyyətə düşdüyünü görüncə, açıq-aşkar istədiyi ilə "fırlanacaq", yeri gələndə sahibsiz it kimi onu küçəyə atacağı ilə hədələyə-cəkdi. Kimsəsiz, yaşlanmış, qol-qıçı iş tutmayan Fəxrəddin yad ellərdə hər cür əzabları yaşamalı olacaqdı…

O, gələcəyini düşündükcə fikir burulğanında çapalayır, taleyinə acıyırdı. Tələbə olarkən xoşbəxt, gözəl gələcəyinin xəyalını qururdu. Vəfalı ər, qayğıkeş ata, yaxşı müəllim olacağına inanırdı. İllər ötdü, həyat boz üzünü göstərdikcə səbr edə bilmədi, yollar axtardı. Tapdığı yol xoşbəxtliyə aparmadı, əksinə, keşməkeşli həyata düşdü. Bəlkə də Allah onu çətinliyə, bərkə-boşa salmaqla insanlığını sınamaq istəmişdi. Sınağa dözmədiyi üçün arzuladığı təminatlı həyatını verib, əvəzində xoşbəxtliyini, ailə səadətini əlindən almışdı. O, kəndə getməli, ona əzab verən şübhə-lərinə son qoymalıdır. Yubanmadan, elə bu günlərdə. Svetaya da qəfildən, yola düşəndə deyəcəkdi. Tez bilərsə, məsələ uzanar, birdəfəlik gedəcəyindən ehtiyatlanıb gözləmədiyi əngəllər yaradardı.

Fəxrəddin evə gec, qaranlıq düşəndən sonra qayıtdı. Sveta onu tələşla qarşıladı:

- Haradasan, niyə gəlib çıxmırsan? Günorta evdən çıxansan...

- Yerlilərimlə idim, söhbət edirdim.

- Yerlilərindən çoxdan ayrılmısan. Məliki niyə vurmusan? Sənin qısqanclığın məni öldürəcək. Onun nə günahı var, axı! Gəlməsin bizə?..

O, evə çatanadək güman ki, Məlik məlumat çatdırmışdı. Sveta cavabsız qaldığını görüb, davam etdi:

- Məliki sənə görə sevirəm, hörmət edirəm. Özün demirdin, sizdə qonağı yaxşı qarşılayırlar. Sənin adın üçün edirdim. İstəmrsən, deyərəm daha gəlməz. Budur sənin qonaqsevərliyin?

- Niyə gəlməsin, sənə xoşdursa qoy o, gəlsin, mən gedərəm.

- Başınçün... sən getdin yetimini kim saxlayacaq? Zəhmət çək, yetimini böyüt, sonra hara itilirsən, itil.

Fəxrəddin onun bağırtısına əhəmiyyət verməyib, yataq otağına keçib yerinə uzandı. Ertəsi gündən başlayaraq vətənə getmək üçün xəlvəti yol hazırlığı gördü. Qabaqcadan təyyarəyə bilet aldı. Gizlətdiyi və dost-tanışa borc verdiyi pullarını topladı. Yanaşı işlədiyi dostlarına kəndə, evə dəyib bir həftəyə qayıtmaq istədiyini bildirib, başqalarına deməməyi, gizlin qalmasını, o gələnədək işinin aparılmasını xahiş etdi.

Yola düşməsinə yarım gün qalmış niyyətini Svetaya açdı. Gözlənildiyi kimi Sveta təəccübləndi:

- Xeyir ola, belə qəfil. Nə baş verib?

Yalan danışmağa məcbur oldu:

- Xəbər gəlib, anamın vəziyyəti pisdir. Beş-altı günə qayıdacağam.

Svetanın yadından çıxmışdı anasının olmaması.

- Qocalar həmişə xəstə olurlar. Sənin yerində olsaydım, iki yol getməzdim, gözləyərdim, ölində birdəfəlik dəyib qayıdardım, əlavə xərc çəкməzdim.

- İnsanfsız danışma, - Fəxrəddin ürəyində öz dediklərindən utandı. Vəziyyəti pisləşəndə, o dünyada olan anasından yararlanacağını heç vaxt düşünməmişdi. Anası vaxtaşırı yuxusuna gəlib ona bir söz demədən gözüyaşlı yox olardı. O isə ayılandan sonra narahat olmaq əvəzinə, yuxusunu unudar, onu xatırlamağa həvəsi olmazdı. Deməli, o anasının ruhu qarşısında da günahkar idi.

- Bax ha, birdən səni qayıtmağa qoymazlar, - Sveta nigarançılığını gizlətmədi.

- Qayıdacağam.

- Siz "Mamedlərə" inanmaq olmur... Pay-filan almısan?

- Yox, heç nə lazım deyil. Çatanda orda alacağam.

- Gizlin yığdığın pulların hamısını götürmə, bir azını evdə ehtiyat saxla.

- Narahat olma, özüm bilirəm.

Təyyarə gecə uçacaqdı. Axşamtərəfi onu aeroporta aparmağa sifariş etdiyi taksi həyətə gəldi. Fəxrəddin Sveta və qızlarla sağollaşıb maşına əyləşdi. Maşın həyətdən çıxarkən çevrilib yenə əl etmək istəyəndə pəncərədən Svetanın kiminləsə telefonla danışdığını gördü. Ani qanı qaraldı: “Zalımın qızı, qoy evdən aralanım da. Sənin qatmaqarışıq qanına lənət!”

Kaş Məhluqə haqqında düşündükləri yalan olaydı. Belə olsa, fikri qəti idi, geri qayıtmayacaqdı. Pis-yaxşı, öz evində, elində qalacaqdı. Təkcə qazanca, maddi tələbata görə ömür boyu nail olduğu, nəsilbənəsil qazandığı adı, əziz olan hər şeyi itirmək, canlı müqəvvaya çevrilmək olmazdı. Ziyanın yarısından qayıtmaq da fayda verər. Pula heysiyyatı, namusu qurban vermək dəhşətdir...

Evdən aralanıb şəhərdən çıxhaçıxda getdiyi taksinin arxasınca adi minik avtomobilinin gəldiyini gördü. Xeyli vaxt fikir vermədi. Lakin yol şəhərdən kənara, göz oxşayan talaların, düzənliklərin arasına dönəndə də arxadakı maşın gəlməyə davam edirdi. Bu maşın niyə dabanbasma gəlir, - əsəbiləşməyə başladı. Olmaya onu izləyir? Nə istəyir axı?

- Arxadan gələn maşını tanımırsan? - o, taksi sürücüsünə müraciət etdi.

- Xeyr, tanımıram.

- Bayaqdan, şəhərdən bəri arxamızca gəlir. Sürəti azalt görək ötəcəklərmi?

Taksi sürəti azaltdı. Maşın yaxınlaşdı. Fəxrəddin arxanı göstərən güzgüdə avtomobildə tanımadığı dörd nəfərin əyləşdiyini gördü. Sürət azalarkən arxadakı maşın da ötüb-keçmək əvəzinə yavaşıdı.

- Artır aydındır, bizi kiminləsə səhv salıblar. Başıma əngəl açmasalar yaxşıdır. Xahiş edirəm, tez məni aeroporta çatdır, - Fəxrəddin sürücüyə yalvardı.

Taksi sürəti artıranda dərhal arxadakı maşın da onun arxasınca şütüdü. Deyəsən, taksinin izlənmədən canını qurtarmaq niyyətini başa düşmüşdülər. Odur ki, irəlidəki maşının qabağını kəsmək üçün ötüb-keçməyə çalışdılar.

Yol qarşıdakı çayın üstündəki körpüdən keçib kiçik meşəliyə doğru uzanırdı. Körpüdə taksini ötən atomobil meşənin girəcəyində qarşısını kəsdi.

- Saxla görək nə istəyirlər, - Fəxrəddinin narahatlıqdan yaranan həyəcanı səsini titrətdi. Hava qaralmaq üzrə idi. Biri avtomobildə qaldı, üç nəfər düşüb taksiyə yaxınlaşdı. Onları ilk dəfə idi görürdü. Aralarında ən yekəpəri qapını açıb Fəxrəddinə acıqlandı.

- Hara qaçırsan, düş aşağı, sənlə işimiz var.

- Qardaş niyə düşüm, mən tələsirəm, təyyarəyə çatmalıyam, nə sözün var de, eşidirəm.

- Sən deyəsən çətin qanırsan, çünki "gəlməsən", sürüş aşağı! - yekəpərin köməyinə gələn ikinci ucaboylu Fəxrəddinin qolundan tutub maşından düşürdü.

- Siz "qara dallar" heç nəyi yaxşılıqnan başa düşmür-sünüz.

Müqavimət göstərmək mənasız idi. Üçüncü adam taksi sürücüsünün başının üstünü kəsdirmişdi. Onu kolların arasına çəkib aparan iki nəfərin ardınca ayaqlarını çarəsiz sürüməli oldu.

- Bura yaxşıdır, yol görünmür, - biri digərinə məsləhət verdi. Yekəpər davam etdi:

- “Azik”, vətəninə gedirsən, yaxşı yol sənə. Məsləhətdi heç qayıtmayasan. Əsas məsələ odu ki, şəhərimizə necə lüt gəlmisən, gərək elə də qayıdasan. Arxayın olma ki, burada qazandıqlarını aparıb öz torpağında rahat yeyəcəksən. Yuxunda görərsən! Bizim pullar bizdə qalmalıdır. Zəhmət olmasa, aparmaq istədiyin pulları bəri ver. Verməsən, səni bu dəqiqə soyundurub hər yerini yoxlayacağıq.

Onların mavi gözlərindən nifrət yağırdı. İstəklərinə çatmaq üçün qarşısındakı "qaranı" hər an didib-parçalamağa hazır idilər.

- Allah xatirinə, götür, - Fəxrəddin cibindən bir qədər pul çıxarıb, yekəpərə uzatdı, - amma mənə yol pulu qalsın. Anamın vəziyyəti ağırdır. Gedib baş çəkib, qayıdacağam.

- Dedik ki, qayıtmağına ehtiyac yoxdur, «qaraların» sayı bir nəfər azalar.

- Qayıdıb kimin yerini dar edirəm? Kiminsə çörəyinə bais olmuram, qazancını əlindən almıram...

- Bizə işarə edirsən?

- Yox, mən elə demədim. Demək istəyirəm ki, bu pulları min bir əzabla, buradakı insanlara xidmət edib qazanmışam.

- "Dostciyəz", bizə nağıl danışma. Sizin sənətiniz bazarda bizi tərəzidə aldadıb pullanmaq, qadınlarımızı yoldan çıxarmaqdır. Biz hər şeyi bilirik. Sən gəl qalan pulları da çıxart. Tez olsan, təyyarəyə gecikməzsən. Yol puluna dəymərik, təki torpağımızdan rədd ol.

Fəxrəddin pulun hamısını vermək istəmirdi, etiraz etməyə də qüvvəsi çatmırdı. Bilmirdi nə etsin.

- Dayan, mən kömək edim, - tərpənmədiyini görüb, ucaboylu peşəkarcasına Fəxrəddinin qalan ciblərini də ələk-vələk edib, tapdıqlarını bir əldə dəstələdi:

- Utanmırsan, yalan danışırsan, bəs deyirdin pulum yoxdur? Bax, görürsən, siz həmişə beləsiniz. Sizinlə xoş danışanları aldatmaq istəyirsiniz. Yalnız zülmə tabesiz.

Yekəpər məzələnərək Fəxrəddinin kürəyini yumruqladı. Yanındakı ucaboyluya işarə etdi.

- Yola sal, daha getsin.

Ucaboylu onu qabağına qatıb, taksiyə qədər apardı. Fəxrəddin taksiyə oturmağa qayıdarkən, yol boyu onu arxadan izləyən avtomobilin yanından keçdi. Arxa oturacağın qapısı açıq idi. Maşında oturub yoldaşlarını gözləyənin boy-buxunu ona tanış gəldi. Hava qaranlıq olduğundan tanıya bilmədi. Bir neçə addım atıb, yenə dönüb həmin adama tərəf baxdı: Bu odu, Məlik! Ay səni, alçaq, yol kəsənlərə onu nişan verən Məlikmiş. Yola çıxdığını ola bilsin o "ləçərdən" öyrənib. Fürsəti fövtə verməyib, quldurları başına yığıb, onu soymaqla, heyfini, acığını çıxırdı. Demək, bu "reketlərlə" də çoxdan münasibətdə imiş, son aylar yerlilərin başına gələn "müəmmalı" faciələrdə güman ki, onun da payı varmış. İnsan nə qədər vicdansız olarmış... Tanınmamaq üçün maşında oturub, səsini də çıxartmır. Ona elə indi kimliyini bildirmək lazımdır. Yoxsa əclaf olmasını heç zaman sübut etmək olmazdı.

- Məlik!..

Fəxrəddin avtomobilin açıq qapısına tərəf çevrilib nifrət dolu səslə çığırdı. Bu səs dəstə üzvlərini bir anlıq yerində dondurdu. Onlardan birinin tanınması heç kimə yaxşı heç nə vəd etmirdi.

- Məlik, gizlənmə, xeyri yoxdur. Allah hər şeyi görür.

Maşındakı adam yerə düşüb, yekəpərə nəsə pıçıldadı. Yekəpər əmredici səslə çığırdı.

- Taksini yola salın, onu özüm aparacağam.

Taksiyə zəhmət haqqı verilib geriyə yola salındı. Üç nəfər Fəxrəddinin başına yığışdı. Dördüncü, Məlikə oxşayan, avtomobilin yanından çəkilməyib, uzaqdan onlara tərəf baxırdı. Kişiliyi çatmır yaxınlaşıb üzümə baxmağa, - Fəxrəddin düşündü.

Yekəpər qərar verdi:

- Dostciyəz, daha hava ilə uçmalı olmadın. Özün öz işini korladın. Belə qərara gəldik ki, evinə su yolu ilə gedəsən, balıq kimi, hah.., ha.. – qəhqəhə çəkdi, - bilirsən də, bu çay Xəzərə axır. Xəzərə çatdın, hesab et ki, evindəsən. Üzmək bilirsən?

- Yox.

- Öyrənərsən - istehza ilə irişdi.

- Əl ayağını bağlayaq, - biri təklif etdi.

- Lazım deyil, vaxtı itirməyin, gecə düşür, itə-qurda rast gələrik, tez eləyin, - digəri tələsdirdi.

Deməli, bir az aralıda sakit, lal görünən, əslində isə sel kimi iti axan çayın sularına qərq etməklə, onunla üzülüşmək, arxayınlaşmaq istəyirlər. Düşündükcə, ölüm qorxusu bədənini üşütdü. “Vaxtaşırı oradan yola salınan tabutlar sənə heç nə anlatmırmı?” – Tariyelin xəbərdarlığını xatırladı…

Fəxrəddinin Məliki tanıması quldurları deyəsən çaşdırmışdı. Daha doğrusu, onlarda bu ehtiyatlılıq maşındakı adamın yekəpərlə pıçıldaşmasından sonra yaranmışdı.

İndi nə etsin, gözünü yumub ölümə təslim olsun? Nəyə görə. Qansızın biri belə istədiyinə görə? Axı o, heç vaxt özünə belə şərəfsiz ölüm arzulamamışdı. Görünür, Allah onu bu cür sonluğa layiq bilmişdi. Ay Allah, keç günahlarımdan, mənə yol aç, canımı qurtarım bu başkəsənlərin əlindən – qəlbində yalvardı. Qaçıb canını qurtara bilməyəcəkdi. Başlarını söhbətə qatmalı, vaxt qazanmalı, Allahın ona rəhmi gəlib imkan verəcəyi hər şansdan istifadə etməliydi.

- Allah eşqinə, buraxın gedim. Nəyim vardı, hamısını götürdünüz. İcazə verin, yolumdan qalmayım.

- Biz səni asmırıq, kəsmirik. Buraxacağıq Allahın ümidinə, özü bilər ya saxlar, ya da o dünyalıq edər. Üzə-üzə gedərsən Vətəninə, - ucaboylu sözünün ardınca bərkdən güldü.

Gözlənilmədən, yolda sürətlə şütüyən maşın göründü. Maşının peyda olmasından narahat olan "reketlər" diqqəti cəlb etməmək üçün, duruşlarına, sifətlərinə heç nə olmayıbmıştək, təbiətdən zövq alan insan ifadəsi verib, ötüb uzaqlaşmasını gözlədilər. Fəxrəddin onların bir anlıq diqqətsizliyindən yararlanıb, qaçmağı könlündən keçirdi. Ətrafına oğrun-oğrun göz gəzdirmək istəyəndə arxadan kürəyinə dirənən pistoletin lüləsini hiss etdi. Ağzını açıb kəlmə kəsməyən ortaboylu dəstə üzvü irəlicədən Fəxrəddinin niyyətini hiss etmişdi.

Maşın sürətini dəyişmədən onların qarşısından keçib uzaqlaşdı. Bayaqdan avtomobilin yanında durub seyr edən dördüncü adam, yenə də əvvəlki yerində gizlənmişdi.

Yaranmış sakitliyi Fəxrəddin pozdu:

- Məni buraxmırsız gedəm, zərəri yox, xahiş edirəm bir sualıma cavab verin, heç olmasa öləndə arxayın öləm, düşmənimi tanıyam. O maşında oturan var ha, adı Məlikdi?

- Məlik kimdi? Yerlini deyirsən?

- Tutaq ki, Məlikdi, - yekəpər əda ilə cavab verdi, - neyləyəcəksən?

- Elə yerlim olandan sonra nə edə bilərəm ki?

Onlar addım-addım körpüyə yaxınlaşdılar. Körpüdən aşağıda enli yataqlı çay axırdı.

- Siz bazar adamlarının amalı pul və qadındır, yerli hərləyən deyilsiniz, - ucaboylu mızıldandı.

- Elə buna görə də ən yaxşısı yaşamamaqdır, - Fəxrəddin ətrafındakı üç nəfərin ani boşalmasından istifadə edib gözlənilmədən körpünün kənarından özünü çaya atdı.

Onun göz qırpımında, cəldliklə çaya atılacağını ağıllarına gətirməyən yolkəsənlər yerlərində dondular. Dalısıyca suya düşməsini xəbər verən şappıltı eşidildi.

- Ay səni, "qara" əclaf, - yekəpər bağırdı, - gördünüz bizim boşluğumuzdan necə istifadə etdi, - yanındakıları məzəmmətlədi, - çayın ortasına, dərin yerə tullayacağımızı gözləməyib qurtulmağa rahat olsun deyə, tez atıldı... Fırıldaq... Eybi yox, sağ qalarsa da, bizə qorxusu yoxdur, uzaqbaşı bir-birlərini qıracaqlar.

Gülə-gülə aşağı - çaya maraqla baxan yoldaşlarının kürəyinə keyfinin xoş əlaməti kimi hər iki əli ilə şappıldatdı:

- "Əməliyyat" uğurlu alındı. Getdik «gillətməyə», - onlar özlərindən razı halda maşına əyləşdilər. Avtomobil gəldiyi yolla geriyə, şəhərə yollandı.

Çayın kənarı düşündüyü qədər də dayaz deyildi. Əvvəlcə suya qərq olan, sonra təkan verib, suyun üzünə çıxan Fəxrəddin üzməyi bacarmadığından batmamaq üçün əlqol atır, çapalayırdı.

Hərtərəf qaranlıq idi. Göydə parlayan ulduzlardan savayı vahiməli, sükunətli qaranlıq, həyatın sonunun yaxınlaşdığını anladırdı. Çayın buz kimi soyuq suyu bədənini keyitsə də daxilindəki yaşamaq eşqi hər vəchlə Fəxrəddini sahilə yanaşmağa, ölümə təslim olmamağa səsləyirdi. Bununla belə, qəlbində xoş bir rahatlıq duyurdu: dəqiqələr ötdükcə sular onu sürətlə üzü cənuba – Vətənə doğru aparırdı...

***

Məhluqə ağrıdan sakitləşib təzəcə mürgüləmişdi ki, qəfil sancı dincəlmək arzusunu gözündə qoydu. Ağrının şiddəti az qala onu dəli edirdi. Dişlərini bir-birinə sıxır, yumruqlarını düyünləyib, çarpayının kənarına döyəcləyirdi. Ağrıya dözmədiyini görüb, dirsəklənib, çarpayıda oturdu. Yalvarıcı səslə tibb bacısını çağırdı:

- "Sestra", kömək elə, gedim həkimin yanına, dözə bilmirəm.

Ağrının gücündən bükülüb ikiqat olmuşdu. Özünü toplayıb tibb bacısının köməyi ilə həkimin otağına çatdı:

- Qurban olum, həkim, deyəsən vaxtıdır. Qurtarın məni, bu əzabdan...

- Ay qız, mənlik nə var, çıx stola baxaq, - həkim dilləndi.

Həkimin stol adlandırdığı kiçik pilləkənlə çıxılan hündür, böyük çarpayı doğuşun qəbulu üçün istifadə edilirdi. Məhluqə dörd dəfə belə stola çıxmalı olmuşdu. Hər dəfə o dünyanı görüb, geri qayıtmışdı. Başqalarının övlada sahib olmaq arzusu ilə sevincək qalxdıqları bu yer, indi ona ölümə gedən yolun başlanğıcı kimi görünürdü. Bu yoldan necə qayıdacaqdı? Əzablarına son qoyulacaqdımı?

Həkim müayinə edib başını buladı:

- Yox, hələ tezdir. Düş aşağı, gözləməlisən.

Pərişan halda yerinə qayıtdı. Yarım ildən çoxdur ki, canını üzən yükdən azad olmağa hər an hazır idi. Artıq gecə düşmüşdü. Bu gecədən o yana ləngiməməli idi. Allaha ona kömək olmasını, evə tez qayıtmasını yalvarırdı. Bura gəlməmişdən evdə və tanış-biliş arasında mədə-bağırsağından əziyyət çəkdiyini, qarnında şiş əmələ gəldiyini təbliğ edib, şəhər xəstəxanasına üç günlük müayinə və müalicə üçün getdiyini bildirmişdi. Bu gün ikinci gün idi. Uşaqlarına söz verdiyi vaxt yaxınlaşırdı. Körpəni doğub bir yol ilə ondan canını qurtarıb evə qayıtmalı idi.

Dünya dağılsa belə, o, körpəni özü ilə kəndə aparmayacaqdı. Hələ beş ay əvvəl görəndə ki, Əbdül pul vermədi, abort alınmadı, onda ağlına gələn bütün türkəçarələrə əl atdı. Heç xeyri olmadı. Bəlkə də hələ bətndə gözü qorxan körpə, doğulandan sonra başına gələcək əzabları hiss edib, həyata gəlmək istəmirdi.

O zaman körpə ilə üzülüşə bilməyən Məhluqə məsələnin həllini doğulandan sonraya saxladı. Məsələ isə uzandıqca qəlizləşirdi. Körpə doğulanda qeydə düşəcək, hesaba alınacaqdı. Vaxt ötdükcə özü də ona isinişə bilərdi. Sonra nə cür ayrılacaqdı? Gərək mehrini salmamış, tez ondan imtina etsin. Nə ad qoyacaqdı? Necə izah edəcəkdi?

Yoxsa elə burda qoyub qaçsın? Hökumət götürüb saxlasın. Yox, burada qoyub getsə, illər keçəcək, nə vaxtsa analıq hissi baş qaldıracaq, ürəyi tab gətirməyəcək, sirri açılacaqdı. Bəs nə etsin?

Kaş ölü doğulaydı, bununla da bütün çətinliklər yoluna qoyulardı.

Daxilindəki qəribə bir səs deyirdi: Günahını batırmaq üçün yalnız və yalnız, ən düzgün, yeganə çıxış yolu körpənin sağ qalmamasıdır.

Ürəyinə gələn dəhşətli fikirdən canına üşütmə düşdü. Demək, uşaq ölü doğulmasa da, ölümə məhkum idi. Bir günahı yox etmək üçün, təzə günah işlədəcəkdi...

Səhərə yaxın Məhluqənin bağırtısı yaxın otaqlarda yatan əksər xəstələrin yuxusunu qaçırtdı. Belə haray, qışqırıq bura üçün yeni olmasa da, fərqi fəryada bənzəməsində idi. Növbədə qalan həkim və tibb bacıları başına yığışmışdı. Hərə bacardığından ürək üzən fəryadın dayanmasına kömək etməyə çalışırdı.

İllər qədər uzun saniyələr, dəqiqələr ötdü. Sonra sanki gücü tükəndiyindən səsi kəsildi. Otağa sakitlik çökdü. Yeni səs eşitmək naminə, hamı səsini içinə qısıb gözləyirdi. Sükunət halsız Məhluqəni həyacanlandırdı: deyəsən, Allahın mənə yazığı gəldi, biabırçılıqdan qurtulacağam. Səsi gəlmədi, heç kim danışmır, ölüdür yəqin, - sevinmək istədi.

Fikrini tam toplamamış, həkimin şadyana səsini eşitdi:

- Anası, gözləməyinə dəyər, qəşəng, yaraşıqlı oğlun oldu. Maşallah, göz dəyməsin. Vaxtından tez doğulduğuna görə zəif olsa da, eybi yox, az müddətə özünə gələr.

Bu anda uşağın ətürpədici çığırtısı ətrafa yayıldı, onu gözləyən sükunət yox oldu. Qulaqlarına inanmadı, zarıltılı səslə:

- Nə, oğlan? - soruşub, huşunu itirdi.

Həkim onun sevincdən bayıldığını zənn edib, ayıltmağa çalışdı.

- Ay qızım, özünü ələ al. Hələ tezdir, ərini görəndə sevinərsən.

Məhluqənin onu dinləyən halı yox idi. Az sonra tibb bacısının yardımı ilə özünə gəlib yanına qoyulmuş canlıya, arzuolunmaz "qonağa" baxdı. Qəribə işləri var Allahın. İllərlə oğul həsrəti çəkəndə, lazımlı vaxtda ard-ardınca qız verirdi. İndi isə gərək olmayanda gözdağı oğul vermişdi. Çox gərəyi idi... Rüsvayçılıqdan, dili qısıq, gözükölgəli yaşamaqdan başqa nə bəxş edəcəkdi ona? Heç Şakir onu qardaşı kimi qəbul edərdimi? Ağlı kəsmirdi. Əksinə, onu da itirəcəkdi. Eşidib bilsə, əsgərlikdən evə qayıtmayacaqdı.

- Ay Allah, nə gözəl baladır bu, - körpəni əzizləyən həkim, doğuş normal keçdiyi üçün sevinirdi.

- Anası qorxutmuşdu bizi. Hələ harasıdır. Atasının da sevincdən ürəyi gedəcək. Yəqin şirinliyimiz də olacaq.

«Atasının başına daş, - Məhluqənin ürəyindən qara qanlar axdı. Yaradan qadını təkcə buna görəmi yaratmışdı? Kaş o da bədbəxt qadın olunca Əbdülsayağı əclafın biri olaydı».

- Anası özünə gəlsin, əmizdirsin, uşaq otağına apararsınız, - həkim tibb bacısına göstəriş verib, öz otağına getdi.

Məhluqə uşağı əmizdirmək istəmirdi. Onu qucağına almağa qorxurdu. Çəkinirdi ki, qucağına alsa, əmizdirsə, ana məhəbbəti onu körpəyə bağlayar. Körpəyə isinişib bağlanarsa, - bütün ailə üzvləri qohumlar tanışlar xüsusilə uşaqları gözlərinin önündən xəyal kimi keçdi - hamının kinayəsini qazanacaq. Yenə yolayrıcında qalmışdı. Ya hər şeyi kənara qoyub yenicə doğulmuş balasını istəməli, çox şeyləri qulaqardına vurub dözməlidir. Qüvvəsi, iradəsi çatacaqmı dözməyə? Ya da təmiz adını, hörmətini, ömrü boyu dişi-dırnagı ilə misqalla qazandıqlarını qorumaq, itirməmək naminə uşagı yox etməlidir, günah olsa belə... Hər iki yol əzablı idi. Sanki o bataqlığa düşmüşdü. Əbdül onun köməksiz, özbaşına qalmasından istifadə edib, yoldan çıxardıb, nəhayətsiz bataqlığa salmışdı. Hansı tərəfə çabalasa da bataqlıq onu buraxmırdı.

- Anası, balacanı əmizdirdin, aparım?

Tibb bacısının səsi onu fikirdən ayırdı. Əvvəl nə cavab verəcəyini bilmədi. Ani düşünüb, əlini yaxasına, köynəyinin altına apardı. Öz tapıntısına sevinib, acizanə xahiş etdi:

- Südüm hələ yoxdur. Siz Allah, baxın, analardan südü olan varsa, bu günlük kömək etsin.

- Neynək, gözlərik südün əmələ gəlsin. Elə deyil, balası? Nə yaxşı sakit uşaqdır.

Tibb bacısı körpəni qucağına alıb apardı. Bədənindəki ağrılar da Məhluqəni fikirdən, xəyaldan ayıra bilmirdi. Niyə, belə vəziyyətə, bəlaya düçar oldu. Ehtiraslı qadın deyildi. O kabus günü Əbdül necə onun ağlını aldı, anlamırdı. Elə qadın olsaydı, Əbdüllə utanmadan dəfələrlə yatardı. Tamahının qurbanı da deyildi. Əbdüldən nə almışdısa, əməyinin, gördüyü işin haqqını almışdı. Təbii ki, onu yaxınlaşmağa ehtiyac, imkansızlıq sövq etmişdi. Çarəsizlikdən bəhrələnən «çəpgöz» isə çıxılmaz çamırlığa sürütmüşdü.

Niyə Allah ona belə tale qismət etdi? Nə idi günahı?! Bəlkə həmişə olana qane olmaması, qismətdən artıq çarpışdıgı üçündü? Fəxrəddini seçəndə də belə, etmişdi. Görüşünə çıxdıgı, söz verib əhd-peyman bagladıgı Valehi gözləməyə dözməyib, institutu qurtarıb gələn, evlənməyə hər cəhətdən hazır olan Fəxrəddinə üstünlük vermişdi. Nəgd ola-ola, nisyə xoşbəxtliyə bel baglamaq istəməmişdi. İrəli düşmək, daha artıq əldə etmək üçün. Sevginin, xoşbəxtliyin nə oldugunu dərk etmədən, xoşbəxt olmaga tələsmişdi.

O vaxt da, Fəxrəddin ona ürəyini açanda, xeyli tərəddüd keçirmişdi. Sonra evdə, çöldə onu görən Fəxrəddini tərifledi. Valeh isə əsgərlikdə idi. Ölçdü-biçdi, mizan tərəzidə müqayisə edəndə Fəxrəddin agır gəldi. Verdiyi sözün üstündən keçməli oldu. Elə bil son dəfə aylı gecədə bagçadakı ot tayasının dibində sevgilisini qucaqlayıb ağlayan qız deyildi.

Valehin onun ərə getməsini eşidib, özünə qəsd etməsini, təsadüf nəticəsində sağ qalmasını eşidəndə rişxəndlə gülmüşdü. Səhv etdiyini, həyatda onu sevəcək yeganə insanı itirdiyini çox sonralar başa düşmüşdü. Gecikmişdi. Sevgilisi vəfasız çıxmış Valeh bir daha kəndə qayıtmayıb, evlənib şəhərdə qalmışdı. Yəqin ki, xoşbəxt idi. Allah ona çəkdiyi iztirabların əvəzini Məhluqədən də layiqlisi ilə ödəmişdi. Deyilənlərə görə, savadlı, xanım-xatın arvadı vardı.

Bu da Məhluqənin axırı. İndi o iztirablar içində qovrulur, çabalayırdı. Bir neçə illik xoşbəxtlikdən sonra labirintə dönmüş həyat yolunu çözə bilmirdi. Hər tərəfdən qarşısını kəsən sədlərdən çıxış yeri yox idi. Günahlarla başlanan yol, yenidən günaha doğru səmt alırdı.

"Ölmək ölməkdir, xırıldamaq nə deməkdir?!" Qəlbinin dərinliklərindən Məhluqəninkinə bənzəməyən üsyankar səs gəldi. Ömrün dolaylarında qətiyyətsizliyi sonda peşman olmasına gətirib çıxarırdı. Usanmışdı tərəddüd içində yaşamaqdan. Bu dəfə qətiyyətli olacaqdı. Tərəddüddə qalaraq, şəraitə boyun əyib, şərəfsiz qadın olmaqdansa, necə olur-olsun, nə qədər çətin olsa da qeyri-qanuni, bic doğulmuş uşaqdan canını qurtarmalıdır. Bu məsələni çox da uzatmağa dəyməz. Onun gözləmədiyi nəsə baş verə bilərdi. Elə bu gün uşağı götürüb qaçmalıydı. Sabaha saxlamaq olmazdı. Yox, bunu gündüz edə bilməzdi. Görərdilər. Niyyətini başa düşüb imkan verməzdilər. Yaxşısı axşamdır, həkimlər evə gedəndən sonra. Bəxtindən palatada təkdir, həm də birinci mərtəbədə olmağı qaçmaq üçün əlverişlidir. Ümid ancaq axşamadır.

Bütün günü yatağından durmadı. Fikirlərlə baş-başa qalıb, götür-qoy edib, özünü axşama hazırladı. Payız gəldiyindən hava tez toranlaşırdı. İş vaxtı qurtarar-qurtarmaz növbətçi həkim və tibb bacılarından başqa digər həkimlər qaranlığa düşməmək üçün evlərinə tələsdilər. Doğum evinə sakitlik çökdü.

Daha bir saat keçdi. Tibb bacısı qucağında körpə palataya daxil oldu.

- Yeməyin vaxtı çatıb. Bir saatdan sonra gəlib aparacağam.

Məhluqə yazıq görkəm alaraq dilləndi:

- Bir saat azdı, qoy yanımda bir az çox qalsın.

- Yaxşı, - deyə, razılaşan tibb bacısı, körpəni onun yanına qoyub, palatadan çıxdı.

Körpəyə baxdı. Mışıl-mışıl yatırdı. Nə yaxşı olar, buradan çıxanacan ayılıb haray salmaya, - qayğılandı.

Hava yavaş-yavaş qaranlıqlaşırdı. O, işıqlar yanmağa başlayanda uşağı götürüb qaçacaqdı. Hara? Yəqin ki, kəndə. Kəndlə rayon mərkəzinin arası beş-altı kilometr olardı. Maşına minməyəcəkdi. Qaranlıq olsa da nədən qorxacaqdı ki? Piyada uzağı iki saata çatacaqdı.

Əvvəl öz paltarını geyindi. Üst-başını qaydaya saldı. Sonra balacanı ayıltmadan bələyini möhkəmlətdi. Qəfil ağlayarsa səsini necə boğacağını müəyyənləşdirdi. Fikrə getdi, bəlkə aparmasın, qoysun getsin. Xeyr - daxilindəki səs onu yenə məzəmmətlədi, qalmamalı idi. Burada qalmaqdansa, kimsəsiz yerdə, Allahın ümidinə qoymaq daha yaxşıdır. Heç kim bilməz. Ya ölər, ya da sağ qalar.

Pəncərədən çölə baxdı. Ürəyi qısıldı. O, ağır, çətin dəqiqələr yaxınlaşdıqca əsəbləri gərilir, içərisinə dolan sıxıntıdan qarnında doğuşdan qalan sancılar elə bil daha da artırdı. Bir qədər də gözlədi. Qarşıdakı binanın işıqları közərəndə vaxtın yetişdiyini hesab etdi. Körpəni ilk dəfə qucağına götürdü. Özündən asılı olmayaraq bir hiss onu bürüdü. Bu uşaq kimindir? Əlbəttə, onun. Amma ona lazım deyildi. Özbaşına, kimsənin razılığı olmadan gəlmişdi dünyaya... Özünü qınadı. İndi belə fikirlərlə baş qatmağa dəyməz. Vaxt gedir. Qapını açıb dəhlizdən necə keçim ki, görən olmasın? Bəs girişdəki qapıçı?

Hər an onu görüb, məqsədini bilərdilər. Qapıya yaxınlaşıb qulağını dayayıb diqqətlə qulaq asdı. Sakitlik olsa da qapını açıb çıxmağa ürək eləmirdi. Dönüb otağa nəzər saldı. Gözü pəncərəyə sataşdı, ağlına gələn fikirdən sevinib, ürəkləndi: sərfəlisi pəncərədən qaçmaqdı. Pəncərənin qarşısındakı böyük gövdəli, qollu-budaqlı ağac imkan verməzdi ki, onu qarşı binadan görsünlər. Ehtiyatla pəncərəni açdı, ətrafa boylandı. Əvvəl özü düşdü, sonra da qollarını uzadıb, uşağı götürüb sinəsinə sıxaraq, küçə boyu arxaya baxmadan tələsik addımlarla binadan uzaqlaşdı. Qaranlıq düşdüyündən küçələrdə adamlar seyrəlmişdi. Hərdən o yana, bu yana gedən maşınların işıqları yanından sivişib keçirdi. Adamlarla qarşılaşdığı zaman onlara baxmağa çəkinirdi. Körpəni bərk-bərk qucaqlayıb gözlərini yerə dikərək, sanki kiminsə nə isə duyacağından qorxub, baxışlarını qaçırırdı. Hər addımında tanışlara rast gəlməməyi, heç kimin onu tanımamasını Allahdan diləyirdi. Xeyli getdikdən sonra yadına düşdü ki, düşəndə tələsdiyindən pəncərəni örtməyi unutmuşdu. Ayrı vaxt olsaydı qayıdıb bağlayardı. Ancaq indi asta qaçan namərddi. Qayıtmaq onun üçün fəlakət olardı. Körpə bir neçə dəfə bələkdən dartınıb ağlamağa cəhd etdi. Uşağın səsi, hənirtisi belə gəlməmək üçün nəfəs almağa təkcə burnunu saxlayıb, ağzını şal ilə dolayıb bağlamışdı.

Şəhərin küçələrini keçib, kənd yoluna istiqamətləndi. Daha yolla və yolun yaxınlığı ilə addımlamaq olmazdı. Qaranlıqda təkbaşına, qucağında uşaq, piyada gedən qadını görcək hər kəs maşını saxlayıb, onunla maraqlana bilərdi. Odur ki, yoldan xeyli aralı cığır ilə getmək məqsədəuyğun idi.

Şəhər addım-addım arxada qalırdı. Hava mülayim idi. Ay buludların arxasında tutqun baxışlarla yerə baxırdı. Kənarlaşdığı yoldan şütüyən maşınların qaranlıqda tez görünüb, tez də yox olan ağ, qırmızı işıqları onda uşaqlıqdan bəri qəribə hisslər yaradırdı. Elə bil nəyisə xəbərdarlıq edən hər qırmızı işıq uzaqlaşıb yox olanda ürəyinə nigarançılıq yayılırdı. Göydə ulduz uçduğunu görəndə də belə olurdu. Ulduzlu, aylı gecələrlə bağlı o qədər xatirələr vardı ki, yeniyetməliyindən sevirdi belə gecələri. Valeh yaratmışdı onda bu istəyi. Mütləq görüşə çıxardılar belə gecələrdə. Ay işığında söhbət etməyin ayrı ləzzəti vardı. Haradan yadına düşdü Valeh? Daha olan olub, keçib. Xatırlamağın nə mənası? Ay onun insanlardan da yaxın sirr biləniydi. Bu da bir qismətdir. Xoş çağlarının şahidi də Ay idi. İndi kimsəsiz çölün ortasında qaranlığın vahiməsində də yeganə güvəndiyi, qoruyucusu, sirdaşı da Aydır.

Şəhərdən çıxan yerdə də körpə dartınıb çapalamışdı. O çapaladıqca Məhluqə ağlayıb ətrafa səs salmaması üçün hər tərəfdən qalın yun şala bürüyüb, möhkəm-möhkəm bağrına basmışdı. Mübarizənin xeyirsiz olduğunu görən körpə tabe olub, sakitləşib, elə bil yuxuya getmişdi.

Yol kəndə yaxınlaşdıqca Məhluqənin həyəcanı artır, halbahal olurdu. Körpədən azad olmağın vaxtı çatırdı. Özü ilə kəndə aparmayacaqdı ki...

Bəs hara qoyub getsin? Əvvəl düşünsə də, indi çölün ortasında qoyub, qurd-quşa yem olmasından ehtiyatlanırdı. Bəlkə yolun qırağında görünən, dayanacaqda tikilən köşkün yanına qoysun? Uzağı səhər açılanda, bəlkə də lap tezdən yoldan ötən bir yolçu götürüb yiyələnərdi. Yoldan maşınlar keçməyəndə gizlicə aparıb oturacağın üstünə qoyub, cəld aralanmaq lazım idi.

Doğum evindən çıxandan bəri körpəni qucağından yerə qoymadığı üçün, qolları keyimişdi. Oturub dincəlmək istədi. Otluq yer tapıb əyləşdi. Qollarının əzələləri gizildəyirdi. Dincini alıb, körpənin bələyini sahmana salıb, son dəfə bələyib, dayanacağa aparmalı, tez də uzaqlaşmalı idi. Qəlbindəki çək-çevir isə əl çəkmirdi. Hansısa qüvvə uşaqdan ayrılmağa imkan vermirdi. Elə olanda gərək kəndə getməyəydi. Bəs evi, qızları, Şakir? Harada yaşayacaqdı? Mümkün deyildi. Ayrılmalı idi.

O, yol boyu qımıldanmayan, elə hey yatan, dünyadan xəbərsiz canlı varlığa son dəfə baxmaq üçün bələyi açdı. Nə qədər yatağanmış, bu necə kişi olacaq? - gülümsündü. Səsi çıxmaması üçün doladığı şalı açdı. Uşaq bələməyi yadırğasa da, soyuqdan qorumaq naminə tez bələyi açıb, təzədən bükmək istədi. Əlləri körpənin bədəninə toxunanda bədənin soyuqluğu onda heyrət yaratdı. Elə bil o soyuqluq əllərindən vücuduna yayılıb üşütdü. Tələşla əyilib üzünü uşağın üzünə yaxınlaşdırdı, qulağını balaca sinəsinə dayadı. Nəfəsi yox idi. Ürəyi döyünmürdü. Bütün bədəni dondu, dəhşətə gəldi. Uşaq boğulub ölmüşdü!..

O, uşağı boğub öldürmüşdü. Qatil idi. Bala qatili!

Özünü saxlaya bilməyib, hönkürüb ağladı. Çölün ortasında körpəsini qarşısına qoyub, bəxtsiz taleyinə, qatil ana olmasına ağlayırdı. O, belə istəmirdi. Körpədən canını qurtarmaq istəsə də, öldürməyə heç vaxt ürəyi yol verməzdi. Yox olmasını arzulasa da, ana qəlbi başqa yollar arayırdı. Görən Allah niyə belə etdi? Adının ləkəli qalmamaq arzusunu yerinə yetirdi, yoxsa etdiyi günahların əvəzi kimi ömürlük vicdan əzabı cəzası verdi?

Əvvəldən ölü doğulsaydı, onu yandırmazdı, əksinə sevinərdi. Ancaq onun insafsızlığı, xətası üzündən, öz əlləri ilə tələf olması ömürboyu qəlbini incidəcək, sinəsinə dağ olacaqdı. Heç vaxt özünü bağışlamayacaqdı, son nəfəsinədək…

Uşağın ölüsünü çöllü-biyabanda atıb getmək qətiyyən olmazdı. Bəsdi günaha batmağı. Gərək buralarda bir yer tapıb torpağa tapşırsın. Bəs qəbri necə qazsın? Əlləri ilə torpağı cırmaqladı. Yer bərk idi. Bu sayaq iynə ilə gor qazmaq olardı. Yumşaq torpaq, ya qumsallıq görən harda olardı? Necə tapacaqdı? Ay da ondan üz döndərib qara buludların arxasında gizləndiyindən ayağının altını çətinliklə görürdü. Hər tərəf zülmətə qərq olmuşdu.

Yadına kəndə çatmağa az qalmış Qaraçayın qumsallığı düşdü. Yaxşısı çayın yatağındakı qumluqda basdırıb kəndə əliboş, arxayın getmək idi.

Cəsədi əlinə alıb, üzü kəndə yol aldı. Daha körpənin hər tərəfini büküb sinəsinə sıxıb ağlayacağından qorxmurdu! Yenə də bərk-bərk qucaqlayıb körpənin əvəzinə içini çəkə-çəkə ağlayırdı. Yeridikcə, isti göz yaşları yanaqlarını yandıra-yandıra sinəsinə sıxdığı qundağın üstünə axırdı.

O, bir də çaya çatanda özünə gəldi. Dizədək soyunub çayı keçdi. Sərin su ilə gözlərini, əl-üzünü yudu. Vahimələnsə də körpə cəsədi götürüb xəndəyin altındakı qumsallığa apardı. Qumsallığın ortasında dizi üstə oturub, iki əli ilə dirsəkdən dərin çala qazdı. Dünyasında ağlına gəlməzdi ki, nə vaxtsa əlləri ilə balasına qəbir qazacaqdı. Sanki uşağın dilə gələcəyindən diksinib, qan-tər içində bələkqarışıq basdırıb, üstünü qumla hamarladı.

Ayağa durdu. Deyəsən uzaqlarda yağış yağırdı. Get-gedə suyu artan çayın səsi də gurlaşır, yaxınlaşan seldən xəbər verirdi. Bəlkə, özümü çaya atıb rüsvayçılıqdan canımı qurtarım, - ürəyində ağrılı bir fikir gəzdi. Bəs qızlar? Atalı yetimlər indi də anasız qalsınlar? Yox, rüsvayçılıq olmayacaq, sel-su yuyub aparacaq hər şeyi, onun günahını da. Gözlərini sildi. Daha ağlamayacaqdı! Qarşıda kənd başlayırdı. Beynində dolaşan sual yol boyu rahatlıq vermədi. Görəsən, onu çayda kimsə gördümü?

Evə çatanda gecə saat on olmuşdu. Qızlar həyət qapısını açıb onu görəndə təəccübləndilər:

- Ana, bu gecə vaxtı hardan gəlirsən. Vay, üst-başın gör nə gündədir, toza-quma bulaşmısan.

Yol boyu düzüb-qoşaraq uydurduğu yalanları işə saldı:

- Xəstəxanadan gec çıxdım. Daha doğrusu qaçdım. Hə, qalsaydım, "operasiya" edəcəkdilər. Bilmirsiz həkimləri, adamı kəsib-doğramaq üçün əldən gedirlər. Qorxdum, qaçdım.

- Lap yaxşı eləmisən. Allah heç kimi onların ümidinə qoymasın. Üç gündə yaman darıxmışıq sənin üçün. "Operasiya" etsəydilər nə edərdik? - böyük qız boynunu qucaqladı. Ortancıl qız onun paltarını çırpıb təmizlədi.

- Yolda sınıq-salxaq bir maşına mindim. Gəldi çayda xarab oldu. Məcbur olub, ordan piyada gəlmişəm.

- Vay, qaranlıqda? Qorxmursan?

Balaca qız heyrətləndi. Anasını diqqətlə süzüb:

- Elə bil bir az dəyişmisən. Deyəsən, şiş çəkilib. Ancaq yaman əziyyət çəkmisən, gözlərin də qızarıb. Bizim üçün ağlamısan, eləmi?

Məhluqənin gözləri doldu. Hər üçünü bağrına basıb qucaqladı.

- Əlbəttə, sizsiz bir günüm olmasın. Mən də sizin üçün çox darıxmışam. Amma indi yorulmuşam, bu gecə imkan verin yatım, sabah söhbət edərik.

Çəkdiyi əzablardan, keçirdiyi sıxıntılardan sonra dincəlmək ümidiylə yatağına uzansa da uzun müddət gözünə yuxu getmədi. Yatmaq istədiyi anda qumsallıqda əlləri ilə qazdığı çala gözünün önündən çəkilmirdi.

Gecəyarı qulağına qığıltı səsi gəldi. Uşaq qığıltısıydı. Qeyri-ixtiyari duruxdu, ətrafa göz gəzdirdi. Heç nə anlamadı. Qığıltı kəsilmirdi. Uzandıqca şikayət-yalvarış dolu körpə ağlamasına bənzəyirdi. Haradan gəlirdi bu səs? Həyəcandan ürəyi əsdi. Yoxsa basdırdığı uşağın naləsiydi onu dəli etmişdi?

Hövlanək ayağa durub, səsin ardınca çölə çıxmaq istədi. Pəncərədən bayıra, həyətə baxdı. Qaranlıq küçədə kimsə görsənmirdi. Vıyıltı ilə əsən külək uğuldayır, həyətdəki ağacları, damlardakı boşalmış dəmir örtükləri tərpədib qəribə səslər çıxarırdı. Ayın küskün işığına bələnmiş göy üzü buludlarla örtülmüşdü. Yəqin yağacaqdı, dolmuş göylər hönkürəcək, ürəyini boşaldacaqdı...

Özünə təskinlik verib yerinə qayıtdı. Ağlına gələn cürbəcür fikirlərdən qorxub, otağın işığını söndürmüşdü. Kənarda yanaşı yatıb yuxuya getmiş balalarına baxdı. Yaxınlaşıb soyuq dəyəcəyindən ehtiyatlanıb, üstlərindəki əyilmiş yorğanı düzəltdi. Sonra hər birini yuxudan oyatmadan əzizləyə-əzizləyə saçlarını tumarlayıb yanaqlarından öpdü, kövrəldi. Ona elə gəldi ki, balalarını bir daha görməyəcək. Qismətinə yalnız itirmək yazılmışdı. O, razı olmazdı övladlarına nəsə olsun, canını verməyə hazır idi. Onsuz da itirdiyini itirmişdi. Qurban olum sənə ay Allah, - yalvardı, - qoy nə olur mənə olsun, onlara heç nə olmasın. Dolan gözlərindən yaş gilələnərək yanaqlarına yayıldı.

Küləyin uğultusu dayanmışdı, sürəkli yağış başlandı. Qara buludlarla dolmuş göylər də, sanki Məhluqə kimi kövrəlib, göz yaşlarını saxlaya bilmirdi. Göylər kiminçün ağlayır görəsən, - düşündü, - dərdli insanlar az idimi dünyada?!

Səhərə yaxın yuxuya gedən Məhluqə dəhşətli bir yuxu gördü. Hər yeri sel ağzına almışdı. İnsanları qoynuna alıb aparırdı. Qəribə o idi ki, ah-nalə çəkən, kömək istəyən yox idi. Yalnız Məhluqə, selin apardığı adamlar arasında Fəxrəddini görüb, fəryad edirdi. Qollarını uzadıb Fəxrəddini çıxartmaq, kənarlaşdırmaq istəyirdi. Fəxrəddin isə insan selinin axarında heç nə eşitmir, onu görmürdü. Harayı, cəhdləri boşa çıxıb, heç nə bacarmadığını görən Məhluqə qəflətən özünü də selin içində gördü. Çıxmaq üçün çabaladı. Qurtulmağa gücü çatmadı.

Yadına uşaqları düşdü. İndi onlara kim baxacaqdı? Başsız qalan balalarım, vay! Barı onları sel aparmasın. Yazıqdılar…

Yuxudan hönkürtüsünə ayıldı. Gördüyü yuxunun ovqatını dağıtmaq üçün yerindən qalxıb, pəncərənin önünə gəldi. Yağış dayanmışdı. Yağışdan yaranan sel küçələrdə yarğanlar açmışdı...

Üç gün işə çıxmadığından xadimə yoldaşlarına kömək məqsədiylə səhər tezdən məktəbə getdi. Xadimələr arasında ən cavanıydı. Hamının hörmətini saxladığına görə onun xətrini çox istəyirdilər. Tez hal-əhval tutub, xəstəliyi barədə soruşdular. Məhluqə hələ tam sağalmadığını deyib, yersiz söz işlədəcəyindən çəkinib özü haqqında çox danışmadı. Arvadlar söhbəti dəyişib gecə yağan yağışdan, yolları dağıdan seldən, Qara çayın daşmasından danışırdılar.

Kəndin aşağı məhəlləsində yaşayan, qaçaqaç özünü işə yetirən Mərcan arvad söhbətə qarışdı:

- Xəbərdən xəbəriniz var? Deyirlər Gülzarın əri Urusetdə özünü asıb. Ölüsünü gətirməyə bir ətək xərc gərəkdi, neçə gündür dost-tanışdan pul yığırlar.

- Bıy, görən niyə asıb özünü bədbəxt oğlu. Əlbət, yaşamaqdan bezib...

- Allah bilir. Kimi deyir məcbur ediblər, pul üstündə olub. Kimi də deyir Gülzarın hərəkətlərini, gəzdiyini eşitdiyi üçün dözməyib... Hələ bu harasıdır. Bir az əvvəl mən görəni görsəydiniz dəhşətə gələrdiniz. Ay balam, dünyanın axırıdı da. Day bundan artıq Qiyamət günü olmaz ki. Televizordan görüb eşidərdik uşağı doğub atırlar küçəyə, zibil yeşiyinə. Başımıza gələnə bax. Bu da kənd. Lap ağı çıxıb. Səhər işə gələndə görürəm camaat yığışıb çay qırağına. Maraqlandım. Elə ona görə ləngidim. Hə, yaxınlaşdım görəm nə xəbərdi. Nə görsəm yaxşıdı, yenicə doğulmuş uşaq meyidi. Özü də səliqə-səhmanla bələyə bükülüb. Məəttəl qaldım. Görəsən hardan vurub gətirib sel? Əgər bədbəxt hadisədirsə, anasının meyidi də çıxardı sahilə. Gör də zəmanə necə dəyişib. Allah götürərmi bunu?!

- Nə danışırsan, ay Mərcan, zavallının taleyinə bax. Dünyaya gələn kimi məhv olub. Heç fərli ana da balasına qıyar? Yəqin nə isə əmması var. Aaz, bəs neylədilər tifilin cəsədini?

- Neyləyəcəklər. Polisə xəbər verildi, gəlib apardılar. Araşdıracaqlar...

Məhluqə söhbətin axırını dinləyə bilmədi. Başı hərləndi, rəngi ağardı, qırıq-qırıq səslər eşidərək bayıldı.

Birdən onun yerə yıxıldığını görən arvadlar söhbətlərini yarımçıq kəsdilər.

- Aaz, dayan görüm, bu qıza nə oldu, özündən getdi ki. Su gətirin. Bu sağalmayıb, işə nöş gəlib?

Su gətirib Məhluqənin üzünə səpdilər. Hərə bir tərəfdən əl ayağa düşdü. Onu birtəhər ayağa qaldırıb yalvarmağa başladılar:

- Qızım, başına dönüm, get evinə. Canına bax, sağal. İş qaçmır ki. Hələ gəlmə. Biz sənin işini görərik, direktordan da xahiş edərik. Get evinə...

Evə çatanda halsızlıqdan ayaqüstə güclə dururdu. O, qızlarının köməyi ilə yenidən yatağına uzandı. Balaca Kifayət başının üstünü aldı:

- Ana, bəs deyirdin sağalmısan? Nə oldu sənə?

Cavab vermədi. Qızın saçlarını tumarlayıb, ah çəkdi. Mənim dərdim sağalmazdı bala, - demək istədi. Sözlər hülqumunda ilişib qaldı. Gözlərini tavana zillədi. Onu evdən ayıracaq, ürəyinə dammış uzunmüddətli səfərə hazırlaşırmış sayaq yatmaq, dincəlmək istəyirdi...

***

Axşamtərəfi günəş qüruba enəndə Məhluqə evinin qarşısında pəncərəsi dəmir barmaqlıqlı polis maşınının dayandığını gördü. Ağlına gələn fikirdən bədəni dondu. Demək, onu tanımışdılar. Gizlin heç nə qalmayıb. Ona görə də arxasınca həbs etmək üçün aparmağa gəliblər. İndi ildırım sürətilə bütün kəndə, onu tanıyanların hamısına, hamıya bic uşaq doğub öldürməyi məlum olacaqdı. Və hamı, ona ikrahla baxacaqdı. Qızları... Əvvəlcə vay-şivən qoparacaq günahını biləndə isə onu nifrətlə süzəcəkdilər...

Dəhşətdən ürəyi sıxıldı... Gecə çaya atılaraq özünü boğmamasına peşman olan Məhluqə sidqi-ürəklə əllərini göyə açıb Allahdan ölüm dilədi. Bu ana qədər günahlarını ört-basdır edib uşaqlarının xətrinə yaşamaq istəyirdisə, daha gizlətdiklərinin üstü açılıb rüsvay olandan sonra onun qənaətinə görə, yaşamağa dəyməzdi. Kim istəyərdi belə ananı?!

Bayırdan həyətə girən polislərin səsi gəlirdi. Onları qarşılayan qızlardan, deyəsən onu soruşurdular.

Çıxmayacaqdı, - həyacandan partlayan ürəyində qərar verdi. Nə polislərin, nə də qızlarının üzünə çıxmayacaqdı. Dəli kimi yüyürüb səhərdən bəri dincəldiyi otağın qapısını arxadan kilidlədi. Başını qapıya söykədi, ürəyi yerindən çıxırdı. Nə etməli? Tələsmək lazım idi. Bu zəhər qatılmış acı həyatdan azad olmalı, üzülüşməli, heç kimin onu tapa bilməyəcəyi qeybə çəkilməli idi. Necə? Küçəyə çıxan pəncərədən aşağı baxdı. Bəlkə özünü ikinci mərtəbədən yerə atsın? Xeyri yoxdu, ölməyəcəkdi. Uzaqbaşı şikəst olub, zillət dolu ömür sürəcəkdi. Lazım deyildi. Ona ani, sürətli, mütləq ölüm gərək idi!.. Əzablardan birdəfəlik qurtulmaq üçün... Gözləri otağı qarış-qarış gəzib axtardıqca, əsəbləri gərilir, tarıma çəkilirdi. Özünə çarə tapmalı idi! Birdən gözü qarşıdakı şkafın dolablarına sataşdı. Nə xatırladısa, tələm-tələsik dolabları ələk-vələk etdi. Dolablardakı xırda qabların içərisində axtardığını tapa bilmirdi. Yox, o, damarını doğramayacaqdı. Özünü kəsməkdən bir şey çıxmazdı. Qabların içərisində saxladığı yandırıcı sirkəli turşu şüşəsini axtarırdı. Ağzını açıb, ölümə susayıb başına çəkəcəkdi. Onunla da hər şey bitəcək, istəyinə yetəcəkdi...

Pilləkəndə ikinci mərtəbəyə çıxan kiçik addımlar saniyələr keçdikcə otağa yaxınlaşırdı:

- Ana, ay ana, dur, bəsdi yatdın. Polislər gəlib, qapıdadırlar. Səni çağırırlar. Çıx gör nə istəyirlər?

Cavab almadığını görən Kifayət əvvəlkindən bərk qışqırıb qapını döyəcləməyə başladı. Həyətdən polislərin böyüyünün səsi gəldi:

- Hə, nə oldu, ayılmadı yuxudan?

Kifayət bacılarını köməyə çağırdı:

- Hay vermir. Qapını da arxadan bağlayıb.

Böyük qız da otaqdan hənirti gəlmədiyini duyanda təşvişə düşdü:

- Bu yatmağa oxşamır. Ona nəsə olub, qapını açmaq lazımdır, - üzünü həyətdə duran polislərə çevirib yalvarıcı səslə çağırdı, - içəridən səs gəlmir, qapı da bağlıdır. Anama nəsə olub. Gəlin, көмәк edin qapını açaq.

Polislərdən biri həyətdə qalıb, ikisi көməyə gəldi. Qapını açmaq üçün кilidi qırmaqdan ayrı əlac yox idi. Qızların səbri tükənirdi. Onları кilidin sınması yox, analarının vəziyyəti maraqlandırırdı. Dünən axşam xəstəxanadan gələn analarının halı onsuz da ürəkaçan deyildi. Allah etməsin, qəfil ürəktutması ola bilərdi!..

Nəhayət, polislərin sayəsində həyətdən gətirilən qalın lingin көməyi ilə кilid qırılıb, qapı açıldı. Çarpayıda uzanılı qalmış Məhluqənin əlində bərк-bərк tutduğu ağzı açıq şüşədən otağa sirkəli turşunun burunu qıcıqlandıran ağır qoxusu dolmuşdu. Sanki utandığından, ya da çəkdiyi əzabları bildirməmək üçün üzünü balışın içində gizlətməyə çalışmışdı.

Bir an özlərini itirən uşaqlar hönkürtü ilə analarının üstünə atılıb qucaqladılar:

- Ana, nə oldu sənə, ana? Ana, niyə belə edirsən?

Məhluqə cavab vermək iqtidarında deyildi. O, ən çox çəkindiyi cavabı verməkdən qorxaraq artıq həyatını tərк etmişdi.

Rastlaşdığı faciəvi hadisədən sarsılan cavan polis həyəcanla yaşlı həmkarından soruşdu:

- Rəis, təcili yardım çağırsaq, көməyi dəyər?

- Xeyri olmaz, gecdir, - o, təəssüflə əlini yellədi, - bir qaşıq içsəydi dərd yarı idi. Görmürsənmi, şüşəni yarılayıb, - işarə ilə Məhluqənin sinəsinə sıxdığı sirkə qabını göstərdi.

Qızların ağlaşmasına dözməyən polislər, otaqdan çıxıb həyətə düşdülər:

- Burada qalıb nə edəsiyiк? Daha bizlik deyil, şöbəyə aparılası olmadı. Gedək, müstəntiqə xəbər çatdıraq, öz işini bilsin.

- Hə, elədir, - digəri təsdiqlədi, - indi onu bizim müstəntiqdən də yaxşı sorğu-sual edəcəklər...

Onlar gəldikləri maşına əyləşib uzaqlaşanda qızların harayına biganə qala bilməyən qonşular hər tərəfdən evə axışırdılar.

Məhluqənin ruhu кimsəylə qarşılaşmamaq üçün dolan buludların arxasında gizlənmişdi.

Qaraçayda yenə sel gözlənilirdi...

May-avqust 2004.

Rovşan

SEL.

(Povest)

Format 60x90 1/16, Fiziki cap -10

Tiraj - 500